# Ölən və yaralanan var

Qarabağda ermənilərin avtomobili sülhməramlıların zirehli maşını ilə toqquşub



**Xankəndidən Şuşaya gedən yolda Rusiyanın zirehli transportyoru ermənilərin idarə etdiyi "Mercedes"ə çırpılıb.**

Bu barədə "Caliber" məlumat yayıb.

Bildirilib ki, hadisə nəticəsində bir nəfər ölüb, bir nəfər yaralanıb. Sülhməramlıların həmin ərazidə yolu bağladığı qeyd olunub.



## Səlcuq Bayraktar Hərbi Qənimətlər Parkında olub

**Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Səlcuq Bayraktar Bakıdakı Hərbi Qənimətlər Parkını ziyarət edib.**

O, bununla bağlı "Twitter" hesabında paylaşım edib.

"Bir daha qələbə memarlarını, bütün şəhidlərimizi rəhmətlə, qazilərimizi isə minnətdarlıqla yad edirik", - paylaşımda deyilir.


№ 25 (5547), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 10 fevral 2022-ci il (cümə axşamı)




# Əvvəllər ətir qoxusu gələrdi...

Azərbaycanda siqaret çəkən qadınların sayı kəskin artıb

**Tütün dünya əhalisinin qarşısı alına bilinən əsas ölüm səbəblərindəndir. Hesablamalara görə, tütünün törətdiyi xəstəliklər nəticəsində hazırda dünyada hər il 8 milyondan artıq insan ölür. Onların 1 milyonu ətrafa yayılan tütün tüstüsü ilə nəfəs alan passiv tütün çəkənlərdir.**

XX əsrdə tütün epidemiyası bütün dünyada 100 milyon insanın həyatına son qoyduğu halda, XXI əsrdə tütündən 1 milyard insanın ölümü gözlənilir. Bəs, Azərbaycanda tütünlə bağlı vəziyyət nə yerdədir və ondan imtinaya zərurət varmı?

(səh.7)



## Sahibkarlıq sahəsində yoxlamaların dayandırılması müddəti daha 1 il uzadıldı

**Prezident İlham Əliyev "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanunu təsdiqləyib.**

Qanuna əsasən, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsində "2022-ci" sözləri "2023-cü" sözləri ilə əvəz edilir.

*Bu Qanun 2022-ci il yanvarın 1-dən tətbiq edilir.*

## Rusiya XİN Azərbaycanın erməni hərbçilərini təhvil verməsini alqışlayıb



**"Bu il fevralın 7-də Azərbaycanın 8 erməni hərbçisini Ermənistana təhvil verməsini alqışlayırıq. Ermənistan-Azərbaycan münasibətlərindəki problemli məsələnin tezliklə aradan qaldırılması və məhbusların "hamı üçün" formuluna uyğun olaraq mübadiləsinin başa çatdırılması vacibdir".**

Bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova həftəlik brifinqdə deyib.

"Münaqişə zamanı itkin düşənlərin taleyinə aydınlıq gətirmək üçün səy göstərməyi vacib hesab edirik", - Zaxarova qeyd edib.

# Ermənistan verdiyi vədə əməl etmir

Ceyhun Bayramov: "Qarşı tərəfin mənəviyyata sığmayan, məntiqsiz açıqlamalarının şahidi olduq"



**"Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması barədə danışarkən sərhədlərin delimitasiya və demarkasiyası məsələsi həllini tapmalıdır".**

Bu barədə Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov moldovalı həmkarı Niko Popesku ilə birgə mətbuat konfransında bildirib. XİN rəhbəri deyib ki, Azərbaycan Ermənistanla sərhədin delimitasiya və demarkasiya prosesinə qeyd-şərt olmadan başlamağa hazırdır: "Hər iki ölkə ərazi bütövlüyü, suverenlik, ərazilərin beynəlxalq sərhədlər çərçivəsində tanınması prinsiplərini dəstəkləyir. Biz ölkələrimizin mövqelərini yaxşı anlamaq üçün siyasi məsləhətləşmələrin mütəmadi keçirilməsi barədə razılığa gəldik. Humanitar sahədə əməkdaşlığı genişləndirməliyik".

(səh.2)



## Azərbaycanda iki rayon ləğv edilir

**Gəncə şəhərinin Nizami və Kəpəz rayonları ləğv olunur.**

Bu, Milli Məclisin Regional məsələlər komitəsinin fevralın 11-də keçiriləcək iclasında müzakirəyə çıxarılacaq "Gəncə şəhərinin inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" qanun layihəsində öz əksini tapıb.

Layihəyə əsasən, Nizami və Kəpəz rayonlarındakı inzibati ərazi dairələri Gəncə şəhər İcra Hakimiyyətinin tabeliyinə verilir.

*Sözügedən rayonların ərazisində Nizami və Kəpəz bələdiyyəsi fəaliyyət göstərəcək.*

# "Tərtər işi" cəmiyyətin qırmızı xəttidir

Məsələ hüquqi, hərbi, siyasi həllini tapmalıdır

**Baş Prokurorluq "Tərtər işi" barədə məlumat yayıb. Vurğulanıb ki, "Tərtər işi" çərçivəsində işgəncəyə və digər qanunsuz əməllərə məruz qalmış 163 yeni şəxs müəyyən edilərək zərərçəkmiş şəxs qismində tanınıb. Onların hərtərəfli dindirilməsi, məhkəmə-tibbi ekspertizadan keçirilmələri təmin edilib.**

Beləliklə, işgəncə faktları üzrə əvvəlki istintaq zamanı zərərçəkmiş kimi tanınmış şəxslərin ümumi sayı 281-ə yüksəlib. Məlumatda qeyd olunub ki, "Tərtər işi" ilə bağlı daha 4 nəfər həbs edilib.

(səh.4)




## Yoluxanların sayı 8 minə çatır

28 nəfər vəfat edib, 6 315 nəfər sağalıb

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 7 779 yeni yoluxma faktı qeydə alınıb, 6 315 nəfər müalicə olunaraq sağalıb.**




Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 28 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 718 145 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 660 112 nəfər müalicə olunaraq sağalıb, 8948 nəfər vəfat edib. 49 085 nəfər aktiv xəstə sayını təşkil edib.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 19 314, bu günə qədər isə ümumilikdə 6 316 102 test icra olunub.

## Bakı-Quba yolunda "TIR" 3 maşınla toqquşub

2 nəfər ölüb, 3 nəfər xəsarət alıb

**Dünən günorta saatlarında Bakı-Quba yolunda baş verən zəncirvari qəza nəticəsində ölənlərin sayı artıb.**



Şabranın Ağalıq kəndi ərazisində "TIR"la 3 minik avtomobilinin toqquşması nəticəsində ölənləri sayı 2-yə çatıb. Qəza nəticəsində 2014-cü il təvəllüdlü Quliyeva Həqiqət Kamil qızı və 1960-cı il təvəllüdlü Babayev Əli Hacıbaba oğlu dünyasını dəyişib. (apa)

*Şabran rayon sakini Quliyev Akif Abdulmənna oğlu, Xaçmaz rayon sakinləri Nuriyev Tural Əjdər oğlu və Səlminaz Babayeva isə xəsarət alıb.*



## "Ən səmimisi, gözəli istefa verməkdir"

Anar İsgəndərov: "Ramiz Mehdiyev sivil yolla getməlidir"

(səh.5)

## "Tağıyev bəlkə heç özü də doğum tarixini dəqiq bilmirdi"

Fərhad Cabbarov: "Şeyxülislamın verdiyi şəhadətnamədə niyə 1823-cü il yazılıb, bu da müəmmalıdır"



(səh.4)

# Ermənistan verdiyi vədə əməl etmir

## Ceyhun Bayramov: ”Qarşı tərəfin mənəviyyata sığmayan, məntiqsiz açıqlamalarının şahidi olduq”




**“Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması barədə danışarkən sərhədlərin delimitasiya və demarkasiyası məsələsi həllini tapmalıdır”.**

Bu barədə Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov moldovalı həmkarı Niko Popesku ilə birgə mətbuat konfransında bildirib. XİN rəhbəri deyib ki, Azərbaycan Ermənistanla sərhədin delimitasiya və demarkasiya prosesinə qeyd-şərt olmadan başlamağa hazırdır: ”Hər iki ölkə ərazi bütövlüyü, suverenlik, ərazilərin beynəlxalq sərhədlər çərçivəsində tanınması prinsiplərini dəstəkləyir. Biz ölkələrimizin mövqelərini yaxşı anlamaq üçün siyasi məsləhətləşmələrin mütəmadi keçirilməsi barədə razılığa gəldik. Humanitar sahədə əməkdaşlığı genişləndirməliyik”.

**Ceyhun Bayramov qeyd edib ki, moldovalı həmkarı ilə görüşdə regional təhlükəsizlik məsələləri geniş müzakirə edilib:** ”44 günlük müharibədən sonra yaranmış yeni reallıqlar və post-münaqişə dövründə Azərbaycanın prioritetləri barədə həmkarımı məlumatlandırdım. Ölkəmiz üçün prioritet azad olunmuş ərazilərin yenidən qurulması və məcburi köçkünlərin geri qayıtmasıdır. Mən yenidənqurma işləri barədə də həmkarıma məlumat verdim”.

**“Ermənistan naziri bu sahədə əməkdaşlıq vədi verib”**

**XİN başçısı diqqətə çatdırıb ki, Azərbaycan tərəfi üçtərəfli bəyanatlarla bağlı öhdəliklərinə sadiqdir. Lakin Ermənistan itkinlərlə bağlı əməkdaşlıq vəd etsə də, sonradan məntiqsiz açıqlamanın şahidi olduq:** ”Azərbaycan müxtəlif beynəlxalq platformalarda itkin düşmüş şəxslərin məsələsini qaldırıb və buna davam edir. 44 günlük müharibədən əvvəl Ermənistan tərəfinin beynəlxalq humanitar hüquqa əsaslanan öhdəliklərini yerinə yetirməsinə şahid olmayıblar: ”4 fevralda keçirilən dördtərəfli görüşdə humanitar məsələlər müzakirə olunub və itkin düşmüş şəxslərin məsələsi qaldırılıb. 3890 nəfər itkin düşmüş şəxs kimi qeydiyyatdadır. Onlardan 719 nəfəri mülki şəxslərdir. Ermənistan naziri bu sahədə əməkdaşlıq vədi verib. Lakin sonradan paradoksun və məntiqə uyğun olmayan açıqlamanın şahidi olduq. Nazirlik heç bir vədin verilmədiyi barədə açıqlama verdi. Bu, mənəviyyata, insanlığa sığmayan açıqlamadır və məyusluq, təəccüb və mənfi hisslər doğurur. Azərbaycan davamlı və israrla bu məsələnin üzərinə gedəcək. Dünya dövlətləri bu istiqamətdə Ermənistana təzyiqləri artırmalıdır”.

**“Ermənistan delimitasiya və demarkasiya ilə bağlı şərt irəli sürür”**

**Nazir deyib ki, Ermənistan tərəfinin sərhədlərin delimitasiya və demarkasiyası ilə bağlı şərt irəli sürdüyünü müşahidə edirik**: ”Bu, müsbət dinamikaya yardım etmir. Azərbaycan delimitasiya və demarkasiya ilə bağlı öz öhdəliklərinə tam əməl edərək heç bir şərt irəli sürmədən prosesə hazır olduğunu bildirib. Regionda kommunikasiyaların bərpası istiqamətində Azərbaycan tərəfi bir sıra işlər görüb və görməkdədir”. C.Bayramov qeyd edib ki, Ermənistan sərhədlərinə qədər 110 km uzunluğu olan dəmir yolu xəttinin çəkilməsi ilə bağlı işlər aparılır, artıq bu işlərin 24 faizi tamamlanıb: ”2023-cü ildə bu layihə tamamlanacaq. İşğaldan azad olunmuş ərazilərdə 124 km avtomobil yolunun çəkilməsi ilə bağlı işlər gedir və bu işin isə 27 faizi tamamlanıb. Ermənistan tərəfindən isə ziddiyyətli bəyanatlardan başqa real iş görülməyib. Bu, tərəflərin öhdəliklərə nə dərəcə əməl etməsinin nümunəsidir”.

**İsmayıl**



# Türkiyə ilə birgə istehsal ediləcək PUA-lar dünyada tanınacaq

## “Rəsmi Ankara son illər artan nüfuzunu qardaşı ilə bölüşür”

**Türkiyənin ”Baykar” şirkətinin texniki direktoru Səlcuq Bayraktar jurnalistlərə açıqlamasında bildirib ki, Azərbaycanda yeni müəssisə qurmağı planlaşdırır.**

O qeyd edib ki, Azərbaycanda ”Bayraktar TB2” dronlarının və pilotsuz uçuş aparatlarının istismarından, onlara texniki xidmətdən başqa bu qurğuların istehsalı üçün lazım olacaq yüksək texnologiyanı inkişaf etdirməyi, süni intellektin tətbiqini genişləndirmək məqsədi ilə müəssisə qurmağı hədəfləyirlər:

”Türkiyə Texnologiya Fondu olaraq ”ASAN xidmət”lə birlikdə Azərbaycanın ilk DNT Mərkəzini də açacağıq.Onun yaxınlığında isə Elm Mərkəzini açmağı hədəfləyirik”.

**Hərbi jurnalist, ehtiyatda olan zabit Üzeyir Cəfərov bu haqda ”Şərq”ə danışarkən vurğulayıb ki, hazırda iki ölkə birgə müəssisələr, hərbi sənaye komplekslərinin inkişaf etdirilməsi istiqamətində addımlar atır:**

”Proses iki dövlətin maraqlarına xidmət edir. Həm Azərbaycan, həm də Türkiyə üçün hərbi sənaye kompleksinin inkişafından daha çox siyasi əhəmiyyət daşıyır. Çünki birgə istehsal ediləcək PUA-lar dünyada tanınacaq. Bu zaman Türkiyənin adı ilə yanaşı ölkəmizin adı da çəkiləcək”.

**Ü.Cəfərova görə, indi rəsmi Ankara son illər dünyada artan nüfuzunu qardaşı ilə bölüşür:**

”Ötən həftələrdə Türkiyə dövlət başçısı R.T.Ərdoğan Ukraynada səfərdə oldu. Bu ölkə ilə də birlikdə iki dövlətin PUA-larının istehsal olunması razılaşdırıldı. İndi Azərbaycanla da belə proses həyata keçiriləcək. Bunun dərin siyasi, iqtisadi, hərbi mahiyyəti var. XIX əsrdə müasir texnologiyaya böyük ehtiyacı var. Bu ehtiyacları qarşılamaq üçün də belə razılaşmalar önəmlidir”.

Hərbi jurnalist gələn il Türkiyədə pilotsuz qırıcı təyyarə istehsal olunacağını diqqətə çatdırıb və sonrakı illərdə Azərbaycanın da bu prosesin iştirakçısı olacağını vurğulayıb:

”İki qardaş ölkə üçün eləcə də Türk dünyası üçün belə addımlar böyük əhəmiyyət kəsb edir. Gələcəkdə digər türk dövlətlərinin də bu layihələrdə iştirakı gündəmə gələcək”.

**Günəş Mərd**

# Ermənistan sülhün şərtlərini qəbul etməlidir

## Əks təqdirdə Ankara da müzakirələri dayandıracaq



**”Ermənistanın sərhədlərin delimitasiya və demarkasiyası prosesində Azərbaycana şərt irəli sürməsi göstərir ki, bu ölkə ilə normallaşma prosesi uzun çəkəcək”.**

*Bunu ”Şərq”ə açıqlamasında politoloq Məhəmməd Əsədullazadə bildirib. Siyasi şərhçi vurğulayıb ki, məğlub və Azərbaycanın ərazi bütövlüyünü tanımayan Ermənistana qarşı təzyiqlər mütləqdir:* ”Ermənistanın şərt irəli sürməsi əldə olunan razılaşmalara ziddir. Nikol Paşinyan indiki şərtlər daxilində sərhəd məsələlərində danışıqlarda maraqlı deyil. Daxildə ona qarşı narazılığın baş qaldırmasından çəkinir. Ümumiyyətlə, Ermənistanla sülh uzun prosesdir. Baxmayaraq ki, Türkiyə Ermənistanla danışıqlar gedir. Azərbaycanda iki ölkə arasında münasibətlərin normallaşmasına Azərbaycanla mümkün sülh müqaviləsinin bağlanması imkanları kimi baxır. Əgər Ermənistan bundan yayınarsa, sülhün şərtlərini qəbul etməzsə, Ankara müzakirələri dayandıracaq”.

**İsmayıl**



## Putin Türkiyəyə fevralın 14-də səfər edə bilər

**Rusiya Prezidenti Vladimir Putin Türkiyəyə fevralın 14-də səfər edə bilər.**

”Report” xəbər verir ki, bu barədə Rusiyanın diplomatik mənbələrinə istinadla ”RİA Novosti” məlumat yayıb.

Bildirilib ki, səfər tarixi dəqiq məlum deyil, amma Putinin ayın 14-də Türkiyəyə getməsi mümkündür.

*Qeyd edək ki, daha əvvəl Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan rusiyalı və ukraynalı həmkarlarını ölkəyə dəvət etmişdi.*

# Hərbi əməliyyatlar heç bir tərəfə sərf etmir

## Makron Zelenski ilə görüşdə vəziyyətin stabilləşməsi üçün Putinin istəklərini çatdırıb



“Fransa və Almaniya Rusiya ilə Ukrayna arasında həyata keçirdiyi barışdırma missiyasında səmimidir”

**Kiyevdə Ukrayna Prezidenti Vladimir Zelenski ilə fransalı həmkarı Emmanuel Makron arasında görüş keçirildi. Görüş Marinski sarayında baş tutub. İki saat çəkən görüşdə Ukrayna ilə bağlı gərginlik və sülh prosesi müzakirə edilib. Zelenski deyib ki, Ukrayna və dünya üçün təhlükəsizlik çağırışları ilə bağlı Fransa prezidenti ilə baxışları ümumidir:**

”Fransa regionumuz və bütün Avropa İttifaqı üçün vacib ölkədir. Fransa hökuməti makromaliyyə üçün Ukraynaya 1,2 milyard avro ayırır. Bu, dövlətimizə dəstək baxımından güclü addımdır”. Prezident qeyd edib ki, Makron Ukrayna üçün çox şey edir: ”Sülh prosesi bugünkü danışıqlarımızın əsas məsələlərindən biri idi. Gözləyirik ki, yaxın gələcəkdə hələ 2019-cu ilin dekabrında Paris Sammiti zamanı əldə olunmuş razılaşmalara uyğun olaraq, liderlərin növbəti danışıqları keçirilsin. Bu yolda mühüm addım siyasi məsləhətçilər səviyyəsində dialoqun intensivləşdirilməsidir. Çox uğurlu bir görüş oldu. İkinci görüşü səbirsizliklə gözləyirik. Ümid edirik ki, yanvarın 26-da Berlində keçiriləcək görüşdəki danışıqlar bizi Normandiya sammitinə yaxınlaşdıracaq”. Öz növbəsində, Makron bildirib ki, Fransa və Almaniya Ukrayna münaqişəsinə son qoymaq üçün vasitəçilik səylərinə sadiqdirlər. O bildirib ki, Rusiya Prezidenti Vladimir Putin Minsk razılaşmalarını yerinə yetirməyə davam edəcək. Makron qarşıdakı ayda tətbiq olunacaq bəzi yeni təhlükəsizlik mexanizmlərinin hazırlandığını da açıqlayıb.

**Bakı Politoloqlar Klubunun rəhbəri Zaur Məmmədov deyib ki, Moskva ilə Kiyev arasında effektiv vasitəçi olmaq seçkiqabağı bir vaxtda Emmanuel Makron üçün çox vacibdir. Digər tərəfdən nəzərə almaq lazımdır ki, Makron həm də Avropa İttifaqına sədrlik edən ölkənin başçısıdır. Analitik bildirib ki, Makron Zelenski ilə görüşdə Donbass ətrafında vəziyyətin stabilləşməsi üçün Putinin istəklərini çatdırıb:** ”Əlbəttə, Ukraynada hərbi əməliyyatlar aparmaq Moskvanın özünə də sərf etmir. Çünki ciddi beynəlxalq sanksiyalarla üzləşəcək və bu da onun dünyadakı imicinə zərbə olacaq. Rusiya başa düşür ki, Kiyev NATO-ya üzv olsa və Ukraynanın şərqində ABŞ raketləri yerləşdirilsə, Moskva üçün təhdid yaranacaq. Dünyanın və Avropanın təhlükəsizliyi üçün ABŞ-la Rusiya arasında yeni sazişə ehtiyac var. Bu sənəddə xüsusilə NATO-nun genişlənməsinə dair müəyyən məqamlar əks oluna bilər. Yaxın vaxtlarda imzalanması ehtimal olunan razılığa əsasən Ukrayna hərbi alyansa üzv olmayacaq. Lakin genişlənmə proqramının üzvü kimi çıxış etməsi mümkündür. Ümumiyyətlə, Kremlin əsas marağı Qara dənizin şimalında və şərqində təsir dairəsini qorumaq və kənar müdaxilənin qarşısını almaqdır. Bu, Rusiya üçün ”qırmızı xət”dir”.

**Analitik qeyd edib ki, böyük dövlətlərin maraqları bəzən ziddiyyət təşkil etsə də, onlar ortaq məxrəcə gəlməyi bacarırlar:** ”Ukrayna ətrafında baş verən hadisələrdə bir daha gördük ki, böyük güclər öz ambisiyalarını həyata keçirməyə, çirkin oyunlara hazırdırlar. Zelenskinin Ərdoğanla görüşüb-görüşməməsi məhz Makron-Zelenski dialoqunun nəticəsindən asılı olacaq. Parisin vasitəçilikdə səmimi olduğu qənaətindəyəm. Fransa və Almaniya Rusiya ilə Ukrayna arasında həyata keçirdiyi barışdırma missiyasında səmimidir. Çünki həmin dövlətlərin iqtisadiyyatları həm də Rusiyadan asılıdır. Gələcəkdə ABŞ-ın Rusiyaya sanksiya tətbiq etməsi Aİ-yə təsir edəcək”.

**İsmayıl**



## Türkiyə ordusu İraqın şimalında terrorçuları zərərsizləşdirib

**Türkiyə Silahlı Qüvvələri İraqın şimalında antiterror əməliyyatı keçirib.**

Şimali İraqdakı Zap və Avaşin bölgələrində PKK terror təşkilatının mövqelərinə aviazərbələr endirilib.

Əməliyyat nəticəsində azı 5 nəfərin zərərsizləşdirildiyi deyilir.

Milli Müdafiə Nazirliyinin məlumatında qeyd olunur ki, bölgədə antiterror əməliyyatları davam etdirilir.

## “Pandemiya davam edəcəksə, 6 aydan bir peyvənd vurulacaq"



**”Pandemiya davam edəcəksə, 6 aydan bir peyvənd dozaları vurulacaq”.**

Bu barədə Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov bildirib. Onun sözlərinə görə, əgər pandemiya bitərsə, yəqin ki, insanlar virusa qarşı ildə bir dəfə peyvənd oluna bilərlər.

*T.Eyvazov həmçinin əlavə edib ki, Azərbaycanda iki doza peyvənd almış və 3-cü dozanı alacaq əhalinin sayı 40 faizə yaxınlaşır:*

”Peyvəndləmə hesabına dünyada milyonlarla insanın həyatı xilas olunub. Buna görə xəstəliyi kritik keçirmə və ölüm halları azalıb”.

O, həmçinin əhaliyə tövsiyə edib ki, əgər əldə olunan qoruyuculuğu davam etdirmək istəyirsiksə, ”buster” dozanı da alsınlar.

## Ermənistan XİN: "Vyanadakı görüşdə Türkiyə ilə sərhədlərin açılması müzakirə olunacaq"

**”Vyanadakı görüşdə Türkiyə və Ermənistan arasında diplomatik münasibətlərin qurulması, həmçinin sərhədlərin açılması məsələlərinin müzakirəsini gözləyirik”.**

”Report” xəbər verir ki, bunu Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan söyləyib.

Onun sözlərinə görə, Antalyada keçiriləcək forumda iştirak məsələsi daha çox İrəvan və Ankaranın xüsusi nümayəndələrinin Vyanada apardıqları danışıqların nəticəsindən asılıdır.

*Qeyd edək ki, Türkiyə və Ermənistanın xüsusi nümayəndələrinin növbəti görüşü fevralın 24-də Avstriyanın paytaxtı Vyanada baş tutacaq.*

# Yeniliklər gözlənilir

## Azərbaycan və Gürcüstan enerji sistemləri birləşdiriləcək



**Gürcüstanın İqtisadiyyat və Dayanıqlı İnkişaf nazirinin müavini Romeo Mikautadze Azərbaycana işgüzar səfəri çərçivəsində ”Azərenerji” ASC-nin prezidenti Balababa Rzayevlə görüşüb.**

Azərbaycan və Gürcüstanın enerji sistemlərinin birləşdirilməsi müzakirə olunub. Gürcüstanın İqtisadiyyat və Dayanıqlı İnkişaf Nazirliyindən bildirilib ki, tərəflər iki ölkə arasında energetika sektorunda əməkdaşlığın prioritet istiqamətlərini müzakirə ediblər:

”Azərbaycan bu sahədə Gürcüstanın strateji tərəfdaşıdır. Gürcüstan və Azərbaycan elektrik enerjisinin ötürülməsi üzrə mövcud infrastrukturun müasir tələb və çağırışlara tam cavab verməsi üçün gələcək inkişafı gündəlikdə durur”.

Görüş zamanı əlavə elektrik ötürücü xətlərinin inşası üzrə birgə həyata keçirilən layihələr də nəzərdən keçirilib.

R.Mikautadze Gürcüstanın energetika bazarında aparılan islahatlar barədə”Azərenerji”nin rəhbərini məlumatlandırıb.

Sonda tərəflər iki ölkənin enerji sistemlərinin birləşdirilməsi üçün əlavə ötürmə infrastrukturunun inşasının vacibliyini vurğulayıblar.

Müzakirədə Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze də iştirak edib.

**REAL Partiyasının sədr müavini, iqtisadçı-ekspert Natiq Cəfərli ”Şərq”ə açıqlamasında bildirib ki, Azərbaycanla Gürcüstan arasında elektrik enerjisi mübadiləsi aparılırdı:**

”Sadəcə artıq xətlərin daha da genişləndirilməsi, ötürmə qabiliyyətinin artırılması, qarşılıqlı enerji mübadiləsinin təminatı barədə yeni qərarların verilməsi və yeni infrastrukturun qurulması gözlənilir. Çünki son zamanlar Azərbaycan elektrik enerjisinin ixracında da kifayət qədər ciddi irəliləyiş əldə edib. Ölkəmizin ixrac etdiyi elektrik enerjisi ilə bağlı əsasən də İran, Gürcüstan və Rusiya ilə müqavilələr mövcuddur. Bu istiqamətdə qərarların verilməsi Azərbaycanın elektrik enerjisinin ixracat potensialının artırılmasında mühüm rol oynaya bilər. Ona görə ki, Gürcüstanın enerji generasiyası hələ kifayət qədər özünü təmin edə bilmir. Bir neçə yeni elektrik stansiyalarının tikilməsi ilə də bağlı qərar verilib. Reallaşsa, gələcəkdə Azərbaycan, Gürcüstan və Türkiyə elektrik xətlərinin birləşdirilməsi və mübadiləsinin təmin edilməsi ilə bağlı yeniliklər ola bilər”.

**Sücayət Mehti**

# Ordu rəhbərliyi istənilən an bir araya toplana biləcək

## Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlıq getdikcə genişlənir



**Fevralın 8-də Azərbaycanın Müdafiə naziri Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyənin milli müdafiə nazirinin müavini Muhsin Dərənin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Müdafiə naziri Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyini vurğulayıb.**

O, hər iki ölkənin dövlət başçılarının səmimi münasibətlərinin hərbi əməkdaşlığa müsbət təsir etdiyini deyib. Z.Həsənov strateji müttəfiqliyin dostluq və qardaşlıq əlaqələri üzərində qurulduğunu da qeyd edib. M.Dərə də qarşılıqlı əməkdaşlığın genişləndirilməsi baxımından bu cür görüşlərin vacib olduğunu bildirib. Görüşdə Bakıda keçiriləcək "Texnofest-2022" festivalından da bəhs edilib.

Festivalda Azərbaycan Hərbi Hava Qüvvələrinin vasitələrinin və hərbi qulluqçularının iştirakı barədə fikir mübadiləsi aparılıb. Sonda Azərbaycan-Türkiyə arasında ikitərəfli əməkdaşlığın inkişaf perspektivləri, o cümlədən hərbi-texniki sahədə birgə işçi qruplarının yaradılması və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

**İki qardaş ölkə hərbi rəsmilərinin görüşlərinin əhəmiyyətini "Şərq"ə şərh edən ehtiyatda olan hərbi polkovnik Şair Ramaldanov bildirib ki, bu görüşlər Azərbaycan Ordusunun inkişafı baxımından vacibdir:**

"Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlıq getdikcə genişlənir. Xüsusilə Şuşa Bəyannaməsindən sonra iki dövlət arasında hərb sahəsində islahatların aparılması üçün mühüm müzakirələr aparılır.

Zakir Həsənov Türkiyə hərbi rəhbərliyi ilə görüşlər keçirərək islahatların istiqamətini müəyyənləşdirir. Azərbaycan və Türkiyə ordularının birgə fəaliyyəti nəticəsində hərbi quruluşumuz qardaş ölkənin hərbi sisteminə uyğunlaşdırılacaq. İrəliləyişin əldə edilməsi üçün müəyyən qruplar işləyir. Müvafiq komissiyalar tərəfindən təkliflər hazırlanır.

Təklifləri həyata keçirmək üçün hər iki ordu rəhbərliyinin rəyi önəmlidir. Buna görə də görüşlərin sayı daha çox olacaq. Ordunun təkmilləşməsi üçün birgə təlimlərin keçirilməsi də vacibdir.

Bütün növ silahlı qüvvələr iştirak etməli, tapşırıqları yerinə yetirməli, döyüş hazırlığı artırılmalıdır.

Ordu quruculuğunda yeniliklərlə bağlı müəyyən planlar hazırlanır. Komissiya öz işini bitirdikdən sonra hüquqi sənəd üçün yenidən ordu rəhbərləri bir araya toplaşacaq. Görüşlər nəticəsində Azərbaycanda Türkiyə ordusunun modeli qurulacaq. Bunun şahidi olacağıq.

Danışıqların aparılması Ali Baş Komandanın gələcəkdə ola biləcək hər hansısa əmrini icra etmək baxımından da vacibdir".

**Xanlar Əlibəy**



# Nazir azad edilmiş ərazilərdə!

"Separatçılara zərbə endirmək üçün "pəncərələr" açılır"

**"Müdafiə naziri Zakir Həsənov işğaldan azad edilmiş ərazilərdə yeni hərbi hissənin açılışında iştirak edib. Yayılan fotolardan görmək mümkündür ki, bura, raket-artilleriya briqadasıdır".**

*Bu barədə siyasi şərhçi Aqşin Kərimov deyib. Analitik bildirib ki, işğaldan azad edilmiş ərazilərdəki yeni hərbi hissələr Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan torpaqlarında qalan erməni separatçıların başına zərbə endirmək üçün yaxın pəncərədir:* "Komando hərbi hissələri, Dövlət Sərhəd Xidmətinin hərbi hissələri, bura cəmlənən texnikalar, silahlı və silahsız pilotsuz aparatlar və sair Ermənistana 10 noyabr bəyanatının şərtlərini yerinə yetirməkdən başqa çıxış yolu qoymur. Müdafiə naziri Zakir Həsənovun fotosunda ağır odsaçan artilleriya - "TOS-1A" görünür. Bu silah Rusiya istehsalıdır, "cəhənnəm silahı" kimi tanınır. Mərmisinin düşdüyü ərazi necə deyərlər, külə dönür. 2016-cı ilin aprel döyüşlərində Ermənistanın başına ələnən oda çevrilmişdi. İkinci Qarabağ müharibəsində də istifadə edilib, atış məsafəsi elə uzaq olmasa da, çox effektiv silahdır".

**İsmayıl**



# Putin Qarabağ haqqında yeni, müsbət heç nə demədi

## İndiki vəziyyətdə onun verdiyi bütün bəyanatlar öz ölkəsinin və hakimiyyətinin müdafiəsi üçündür

**Rusiya Prezidenti Vladimir Putin Qarabağdakı vəziyyətdən danışıb. Qarabağdakı sülhməramlı qüvvələrin fəaliyyətini yüksək qiymətləndirən Rusiya dövlət başçısı bildirib ki, Minsk qrupunun həmsədrləri regionda humanitar və sosial-iqtisadi problemlərlə məşğul olmalıdırlar.**

Bununla da V.Putin ATƏT-in Minsk qrupunun üç həmsədr dövlətindən biri olan Fransaya, eləcə də Amerikaya bildirmiş oldu ki, Qarabağda bir vasitəçi var, o da Rusiyadır. Putinin "Minsk qrupunun həmsədrləri regionda humanitar və sosial-iqtisadi problemlərlə məşğul olmalıdırlar" sözləri isə tamamilə Prezident İlham Əliyevin fikirləridir desək yanılmarıq.

Kreml sahibi eyni zamanda Qərbə bir daha xatırlatmış oldu ki, artıq "Qarabağ münaqişəsi", "Dağlıq Qarabağ problemi" deyilən bir şey qalmayıb, ona görə Minsk qrupu regionda iştirak etmək istəyirsə, burada yalnız humanitar və sosial-iqtisadi problemlərin həlli istiqamətində fəaliyyətdən söhbət gedə bilər.

**Vladimir Putinin Qarabağ haqqında çıxışını "Şərq"ə şərh edən politoloq Sədrəddin Soltan bildirib ki, bu hələ sülhməramlıların ölkədən çıxarılacağına işarə deyil:**

"Rusiya hərbçilərinin Azərbaycandan çıxması ilə bağlı 10 noyabr bəyannaməsində xüsusi maddə var ki, sülhməramlılar 5 il müddətində burada qalacaqlar. 5 il sonrakı müddətdə əgər tərəflər qoşunların çıxmasını istəyərlərsə, yaxud iki tərəfdən biri Qarabağda qalmasına etiraz edərsə, o halda sülhməramlılar çıxa bilər. Hesab etmirəm ki, V.Putin sülhməramlıların Azərbaycandan çıxacağına işarə verib. Əksinə, bu, Rusiya hərbçilərinin Azərbaycanda qalması üçün bir mesajdır. Gələcəkdə ola bilsin ki, Azərbaycanla Rusiya arasında hərbi əməkdaşlıq istiqamətində hansısa razılaşma olsun, yaxud Azərbaycan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzv olsun".

*Politoloq Rusiya Prezidentinin ATƏT-in Minsk qrupu ilə bağlı söylədiklərinə əlavə olaraq bildirib ki, həmin qrup 30 ildə heç bir işlə məşğul olmayıb:*

"Yalnız yersiz, yetərsiz və qabiliyyətsiz fəaliyyəti ilə yadda qalıb. Arada bir bəyanat verməklə özlərinin ezamiyyət haqlarını və planlaşdırılmış fəaliyyəti nümayiş etdirməyə çalışıblar. Onlar boş maliyyə vəsaitinin xərclənməsi ilə məşğul olublar. ATƏT üzvləri isə bu təkilatın yaşaması üçün üzvlük haqqı verib. Deməli, Minsk qrupu dövlətlərin verdiyi üzvlük haqqını boş-boşuna xərcləyib. Amma heç bir önəmli işlə də məşğul olmayıb. O işi, yəni Azərbaycan torpaqlarının işğaldan azad olunmasını Azərbaycan tərəfi həyata keçirib. Azərbaycan beynəlxalq hüquq normaları çərçivəsində öz ərazi bütövlüyünü bərpa edib. Bunu nə Rusiya, nə Fransa, nə Türkiyə, nə də digər dövlətlər inkar edə bilər. Beynəlxalq təşkilatlar və dünyanın aparıcı dövlətləri beynəlxalq normalar çərçivəsində Azərbaycanın addımını müdafiə ediblər".

**S.Soltan hesab edir ki, Rusiya özünü münaqişələri həll edən ölkə kimi göstərmək istəyir:**

"V.Putinin bu bəyanatı heç şübhəsiz ki, həm də beynəlxalq səviyyədə ona qarşı təzyiqləri azaltmaq üçün özünə güc toplamaq anlamına gəlir. Putin göstərmək istəyir ki, Rusiya nəinki, münaqişə yaradan tərəfdir, əksinə, münaqişənin həllinə tərəfdar olan ölkədir. Ona görə də Qarabağ münaqişəsinin bitdiyi ilə bağlı bəyanat verir. Hesab etmirəm ki, Putin yeni nəsə demək istəyib. Sadəcə olaraq, indiki vəziyyətdə onun verdiyi bütün bəyanatlar öz ölkəsinin və hakimiyyətinin müdafiəsi üçündür".

**Çimnaz Şahlar**




### Yeni qanunun jurnalistlər üçün tikilmiş "üçüncü bina" ilə əlaqəsi yoxdur

**Ötən gün imzalanan fərmanın jurnalistlər üçün tikilmiş "üçüncü bina" ilə əlaqələndirilməsi üçün hər hansı hüquqi və məntiqi əsas mövcud deyil.**

Bunu Report-a müsahibəsində Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin (MEDİA) icraçı direktoru Əhməd İsmayılov deyib.

"Cənab Prezident tərəfindən imzalanmış müvafiq fərman müəyyən edilmiş tələblərə cavab verən bütün jurnalistləri əhatə edir və bu fərmanın şərti olaraq "Üçüncücü bina" adlandırılan bina ilə ümumiyyətlə heç bir əlaqəsi yoxdur", - deyə icraçı direktor vurğulayıb.

**Daha sonra qurum rəsmisi bildirib ki, qeyd olunan layihələr bir-biri ilə bağlı olmayan tamamilə fərqli layihələrdir:**

"Bina ilə bağlı bizdə hər hansı bir məlumat mövcud deyil. Bir daha xüsusilə vurğulamaq istərdik ki, ötən gün imzalanan fərmanın sözügedən bina ilə əlaqələndirilməsi üçün hər hansı hüquqi və məntiqi əsas mövcud deyil".



# On minlərlə ermənini Xankəndinə qaytarıblar

## Nə sülhü qoruyurlar, nə silahlıları tərksilah edirlər, işləri erməniləri himayə etməkdir

**İsmayıl Qocayev**

**Rusiya sülhməramlılarının Qarabağdakı fəaliyyəti, daha dəqiq desək, mandatlarından kənar davranışları Azərbaycan ictimaiyyətində qıcıq və narahatlıq doğurur. Dünyanın heç bir bölgəsində sülhməramlılar münaqişələrin həllinə yardım etməyib.**

Çünki bu missiyanın daşıyıcıları həm də öz ölkələrinin maraqlarını təmsil edirlər. Sülhməramlılar daha çox tərəflərdən birinin maraqlarını dəstəkləyir. Elə bu tərəfkeşlik yeni münaqişənin yaranmasına zəmin hazırlayır. Bundan başqa, bir ölkə ərazisində başqa sülhməramlı missiyanın mövcudluğu həm də həmin dövlətin hərbi mövcudluğu deməkdir. Tarix onların olduqları dövlətə ziyan vurduqlarını artıq dəfələrlə təsdiqləyib. Bosniya və Hersoqovina, Mali, Mərkəzi Afrika Respublikası, Çad, Kosovo, Əfqanıstan, Kəşmir və digər yerlərdə baş verənlər buna sübutdur. 2020-ci il noyabrın 10-da imzalanan bəyanata əsasən, Rusiya sülhməramlıları Azərbaycanda yerləşdirilib. Onların fəaliyyəti sənədin 3-cü və 4-cü maddələri üzrə müəyyənləşdirilib. Qeyd olunub ki, Rusiya sülhməramlılarının yerləşdirilməsi ilə paralel Ermənistan silahlıları Azərbaycan ərazisini tərk etməlidir. Lakin bir ildən çox vaxt keçsə də, erməni silahlıları ərazilərimizdən çıxarılmayıb. Bundan başqa, Laçın dəhlizi üzrə hər iki istiqamətdə hərəkətin təhlükəsizliyinə Azərbaycan tərəfin nəzarətinə şərait yaradılmayıb. 2020-ci il noyabrın 13-də Ermənistan vətəndaşı Norayr Mirzoyan və başqaları "RQD-5" markalı əl qumbarasını Şuşa şəhərinin Daşaltı kəndi yaxınlığında xidmət edən Azərbaycan Silahlı Qüvvələrinin postuna atıb. Rusiya sülhməramlıları onu saxlasa da, bir müddət sonra sərbəst buraxıblar. Bu terrorçu isə ölkəsində qəhrəman kimi qarşılanıb. Sülhməramlıların tərəfkeşliyi səbəbindən Mirzoyan barəsində indiyədək cinayət işi başlamayıb. Fransa prezidentliyinə namizəd Valeri Pekres sülhməramlıların nəzarəti altında olan Laçın dəhlizindən keçərək qanunsuz olaraq Azərbaycan ərazisinə gəliblər. Rusiyalı hərbçilər nə terrorçunu, nə də Pekresi yolxayıblar. Bu, Rusiya hərbçilərinin missiyasına uyğun fəaliyyət göstərmədiyini deməyə əsas verir. Deməli, sülhməramlıların məsuliyyətsizliyi və ya görməzliyi səbəbindən dəhliz vasitəsilə ermənilər istənilən qadağan olunan hərbi texnika və başqa maddələri, hətta narkotik maddələri belə daşıya bilər. Dövlət başçısı sülhməramlıların fəaliyyətindən narazılığını gizlətməyərək dəfələrlə bu tip halların qarşısını almağa çağırıb. Ölkə rəhbəri Qarabağa Ermənistan tərəfdən giriş-çıxışa sülhməramlıların icazə verdiyini də vurğulayıb. Hadisələr sübut edir ki, sülhməramlılar münaqişə zonalarında üçüncü tərəfdir. Rusiya sülhməramlılarının Azərbaycandakı fəaliyyəti, ermənilərə tərəfkeşliyi ilə öz maraqları və şərtlərini təmin etdiyini göstərir. Belə vəziyyət isə regionda gərginliyin artmasına şərait yaradır. Xatırladaq ki, sülhməramlıların xidmətinin başa çatması üçün təxminən 4 ilə yaxın vaxt qalıb. Rusiya sülhməramlıları ilə bağlı ölkə ictimaiyyətində iki əsas fikir var. Bir qisim hesab edir ki, 4 ildən sonra rus hərbçilərinin ölkədən getməsi təmin olunmalıdır. Digər kəsim isə düşünür ki, təyin olunmuş müddət başa çatmamış "sülhməramlılardan" xilas olmaq lazımdır. Əks halda Azərbaycana daha çox problem yaradacaqlar.

> "İstənilən vaxt rus sülhməramlılarının ərazidən çıxarılması tələbi ilə çıxış edə bilərik"




**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli "Şərq"ə deyib ki, 10 noyabr 2020-ci il bəyanatından dərhal sonra, həmin gecə Qarabağa yeridilən rus sülhməramlıları bundan cəmi 3 gün sonra ermənilərin Qarabağa daşınması və yerləşdirilməsi prosesinə başlayıb.** Partiya rəsmisi xatırladıb ki, rus sülhməramlılarının canfəşanlığı nəticəsində on minlərlə erməninin Xankəndinə qayıtması təmin edilib: "Rus sülhməramlıları əraziləri minalardan təmizləyir, evləri təmir edir, ermənilər üçün modul tipli evlər, xəstəxanalar tikir, məktəblər açır, pulsuz müayinə və müalicə şəraiti yaradır, qanunsuz qurumlara texnika bağışlayır və s. Ən əsası isə Qarabağa yerləşən ermənilərin bütün ərzaq təminatı rus sülhməramlılarının üzərindədir. Sanki Ermənistan və Rusiya ermənilərin Qarabağda təkrar məskunlaşdırılması üçün bütün vasitələrdən istifadə edir və daha çox ermənini Qarabağa yerləşdirməyə çalışırlar. Bunun üçün ən böyük canfəşanlığı rus sülhməramlıları edir. Rus sülhməramlıları 10 noyabr bəyanatında əks olunmasına baxmayaraq, erməni silahlılarının Qarabağdan çıxmasını təmin etməyib. Əksinə, rus sülhməramlıları faktiki olaraq erməni silahlılar və keçmiş separatçı-qondarma qurum "rəsmiləri" üçün qalxan rolunu oynayır. Həmçinin, Azərbaycanın bir neçə dəfə kəskin etiraz bildirməsinə rəğmən, Azərbaycanın rus sülhməramlılarının məsuliyyət zonasında olan ərazilərinə Ermənistan rəsmiləri, hətta xarici ölkə nümayəndələrinin gəlişi müşahidə edilir. Onlara Laçın dəhlizindən keçməklə Azərbaycan ərazisinə daxil olmasına isə rus sülhməramlıları şərait yaradırlar. Halbuki, Laçın dəhlizi Qarabağda yaşayan ermənilərin Ermənistan ilə təhlükəsiz əlaqəsinin təmini üçün müvəqqəti olaraq yaradılan və rus sülhməramlılarının nəzarətində olan koridordur".

**S.Əsədli vurğulayıb ki, bütün bunlar rus sülhməramlılarının missiyasını yerinə yetirmədiyi, daha doğrusu, başqa missiya ilə bölgəyə yerləşdirildiyi şübhəsinə ciddi şəkildə rəvac verir:** "Kəlbəcər-Vardenes yolunun açılması müzakirə mövzusu ola bilməz. Çünki bu, 10 noyabr bəyanatında əksini tapmayıb. Ona görə də sual yaranır. Rus sülhməramlıları Qarabağa sülhü qorumaq, yoxsa erməniləri himayə edib, onların dirçəlməsinə və növbəti dəfə baş qaldırmasına şərait yaratmaq üçün gəlib? Ərazilərimizdə sülhməramlıların fəaliyyətini müəyyən müddətə qədər biz də istəyirik. Ancaq faktiki olaraq, işğaldan azad edilmiş ərazilərdə möhkəmləndikdən, öz sərhədlərimizi tam müəyyənləşdirdikdən sonra istənilən vaxt rus sülhməramlılarının ərazidən çıxarılması tələbi ilə çıxış edə bilərik".

# "Tərtər işi" cəmiyyətin qırmızı xəttidir

## Məsələ hüquqi, hərbi, siyasi həllini tapmalıdır

**Hakimiyyət prosesə nəzarət edir və kənar müdaxilələrlə istintaqın obyektivliyinə zərər vurulmamalıdır**



**Baş Prokurorluq "Tərtər işi" barədə məlumat yayıb. Vurğulanıb ki, "Tərtər işi" çərçivəsində işgəncəyə və digər qanunsuz əməllərə məruz qalmış 163 yeni şəxs müəyyən edilərək zərərçəkmiş şəxs qismində tanınıb. Onların hərtərəfli dindirilməsi, məhkəmə-tibbi ekspertizadan keçirilmələri təmin edilib.**

Beləliklə, işgəncə faktları üzrə əvvəlki istintaq zamanı zərərçəkmiş kimi tanınmış şəxslərin ümumi sayı 281-ə yüksəlib. Məlumatda qeyd olunub ki, "Tərtər işi" ilə bağlı daha 4 nəfər həbs edilib. Həmçinin, 16 şəxs barəsində əvvəlki məhkəmə qərarları ləğv olunub .

**İctimaiyyətdə ciddi rezonans doğuran qalmaqallı "Tərtər işi"nin obyektiv araşdırılması ilə bağlı "Şərq"ə danışan Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev ciddi hüquq pozuntuları və işgəncə xarakterli əməllər ictimailəşdirildikdən sonra prokurorluq tərəfindən reaksiya verilməsini müsbət hal kimi qiymətləndirib.** Partiya rəsmisi vurğulayıb ki, prosesin bu qədər ləngidilməsi Vətən müharibəsinə hazırlıqla bağlı olub: "Durulma prosesi başlayıb. Baş vermiş hadisənin xarakteri aydınlaşdırılmalıdır. Cinayət əməllərində "vətənə xəyanət" elementlərinin olub-olmaması dəqiqləşməlidir. 44 günlük müharibə dövründə ordumuzun mütəşəkkillik, professionallıq və etibarlılıq göstərməsi deməyə əsas verir ki, düşmənin ordumuzu zəifləmək planı həyata keçməyib. "Tərtər işi" prosesi yekunlaşana qədər kənar müdaxilələrin və təzyiqlərin edilməsinin əleyhinəyəm. Hakimiyyət prosesə nəzarət edir və kənar müdaxilələrlə istintaqın operativliyinə və obyektivliyinə zərər vurulmamalıdır. İstintaq elə aparılmalıdır ki, məsələyə bir daha qayıdılmasın".

**Ehtiyatda olan polkovnik-leytenant, hərbi ekspert İbrahim Rüstəmli isə deyib ki, bu məsələ Azərbaycan Ordusunun, ümumiyyətlə, cəmiyyətin həyatından qırmızı xətt kimi keçir:**

"Çox ciddi problemdir. Prezident məsələnin daha obyektiv, mükəmməl, dəqiq araşdırılması üçün yeni komissiyanın yaradılmasını reallaşdırdı. Sözügedən durum hüquqi, hərbi, siyasi həllini tapmalıdır. Günahı olan, səhlənkarlıq edən, özbaşınalığa yol verən hər bir şəxs layiqli cəzasını almalıdır. Çünki "Tərtər işi"ndə alçaldılaraq, döyülərək öldürülən insanlar var. Traktorla qazıb qəbiristanlığın bir küncündə leş kimi dəfn edilən hərbi qulluqçularımız olub. Onların bir qismi bəraət aldı".

**Hərbi ekspert bildirib ki, hadisə təkcə hərbi deyil, həm də siyasi cinayətdir:**

"Dövlətin bel sütununa vurulan zərbədir. Yanlışlığa yol vermək olmaz. Növbəti səhvlər "Tərtər hadisəsi"nin effektini iki dəfə artıra bilər. Prezidentin tapşırığı ilə məsələyə cəlb edilənlər də məsuliyyətlərini anlayacaqlar. Müharibə dövründə xəyanət halları həmişə baş verib və verəcək.

Ancaq bu şəkildə günahsız insanları istintaq masasına aparılana qədər döyərək öldürmək, cinayətkar olsa belə vəhşiliklər törətmək, qanundan kənar hərəkət etmək yolverilməzdir. Sivil dövlətdə yaşayırıq.

Dövlət qanunlarla, konstitusiya ilə idarə edilir. Məhkəmənin qərarı olmasa, kiməsə cinayətkar deyə bilmərik. Şübhəli qismində saxlanılan şəxsi isə qanunların öhdəsinə buraxmaq lazımdır.

Sən kimsən, onu "dubinka", taxta ilə döyəsən? Şərəf və ləyaqətinə ləkə vurasan. Doğmalarını, ailəsini pis vəziyyətdə qoyasan. Cənab Prezidentin məsələyə müdaxiləsi günahı keçən hər bir kəsin layiqli cəzasını alması ilə nəticələnəcək".

**İsmayıl Qocayev,**
**Aygün Tahir**

# Jurnalist üçün ən böyük dəyər onun təmiz reputasiyasıdır

## Qanun isə öz şərəfli missiyasını yerinə yetirməsi üçün jurnalistin yanındadır

**İsmayıl Qocayev**



**Prezident İlham Əliyevin ötən gün təsdiqlədiyi "Media haqqında" qanun mətbuat sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını təşkil edir. Həmçinin, qanun kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edir.**

Bundan əlavə, qanunda jurnalistlərin fəaliyyətinə dair məsələlər, o cümlədən Media Reyestrinə daxil edilmiş jurnalistlərə müvafiq vəsiqənin verilməsi və bəzi imtiyazlar nəzərdə tutulur. Eyni zamanda qanunda dövlət qurumlarında jurnalistlərin akkreditasiya olunması qaydaları, jurnalistin peşəkar fəaliyyəti üçün şəraitin yaradılması və digər məsələlər əksini tapıb. Ölkə rəhbərinin digər Fərmanı ilə güzəştli ipoteka kreditinin verilməsi qaydasına da dəyişiklik edilib. Dəyişikliyə əsasən, gənc ailənin üzvü olan, azı 5 il jurnalist işləyən və Media Reyestrinə daxil edilmiş jurnalistlər güzəştli ipoteka kreditindən istifadə etmək hüququna malik olub. Ən azı 15 il jurnalist işləyən və Media Reyestrinə daxil edilmiş şəxslər də güzəştli ipoteka şərtlərindən yararlana biləcəklər.





**Agentliyin Media subyektləri və jurnalistlərlə iş şöbəsinin müdiri Natiq Məmmədli "Media haqqında" qanunun imzalanmasından sonra sənədin hədəflərini açıqlayıb. Agentlik təmsilçisi bildirib ki, kifayət qədər müxtəlif fikirlərin eşidildiyi və az qala bir ilə yaxın davam edən müzakirələrdən sonra "Media haqqında" qanun artıq qüvvəyə mindi:** "Praqmatik fikirlər, sərt, bəzən barışmaz və amansız iradlar, hətta təhqirlər, ələsalmalar eşitdik. Oxuyub danışanların, "oxumamışam, amma ittiham edirəm" ritorikasına köklənmişlərin də səslərini duyduq. Reallığın gözünə dik baxan, uzun illərin media adamlarının narahatlığı qanundan daha çox belə bir niyyətin nə dərəcədə səmimi olması ilə bağlı idi. Onlar bir qayda olaraq qanunun maddələrinə yox, keçmişin xoş olmayan xatirələrinə istinad edirdilər. Mediamız intellektual baqajında nə vardısa, hamısını qanunun müzakirəsi zamanı nümayiş etdirə bildi. Biz də öz növbəmizdə cavabsız sual buraxmadıq. İşimizin düz və lazımlı olduğuna inanırdıq. Eşitdiyimiz heç bir fikir bizim üçün gözlənilməz deyildi. Çünki ondan da sərt fikirləri öz aramızda səsləndirirdik və saatlarla yox, günlərlə sürən müzakirələrdə həmin sərt sualların tutarlı cavablarını da özümüz tapırdıq".

N.Məmmədli "qanunla hədəflər nədir və nəyə nail olmaq istənilir" sualına belə cavab verib: "Qanun milli informasiya mühitinin sağlamlaşmasına, jurnalistin sosial portretinin formalaşmasına, özfəaliyyət və qeyri-peşəkarlıqla, peşəkarlığın sərhədlərinin müəyyənləşməsinə, mediada layiqli əmək münasibətlərinin möhkəmlənməsinə imkan verəcək. "Media qanunu" ilə eyni gündə dövlət jurnalistlərə güzəştli ipotekadan faydalana bilmək hüququ da verdi. Bu, Azərbaycan Prezidentinin media nümayəndələrinin sosial problemlərinə diqqətinin göstəricisidir. Dövlət hər hansı öhdəlik qoymadan özünün qulluqçusu, müəllimi, alimi, xüsusi nailiyyətləri olan idmançısı üçün nəzərdə tutduğu imtiyazları media nümayəndəsinə də şamil etdi. Bu, yalnız sosial siyasət deyil, eyni zamanda jurnalist peşəsinin və bütövlükdə medianın nüfuzunun yüksəldilməsinə yönəlmiş addımdır. Amma unutmayaq, "Media Qanunu" dövlətin media mühitinə yanaşmasının göstəricisidir. Jurnalist üçün ən böyük dəyər onun təmiz reputasiyasıdır, sözünə olan ictimai etimaddır. Bunu jurnalist özü qazanır. Qanun isə öz şərəfli missiyasını yerinə yetirməsi üçün jurnalistin yanındadır".

**Millət vəkili Hikmət Babaoğlu da deyib ki, "Media haqqında" qanunun tətbiq edilməsi mediamızın inkişaf tarixində tamamilə yeni bir mərhələ təşkil edəcək: "Hər şeydən öncə ona görə ki, yeni qanun bu inkişafı bütün parametrlərlə təmin edə biləcək hüquqi əsaslar və azadlıqları özündə ehtiva edir.** Bu da informasiya cəmiyyətinin zəruri tələblərindən biridir. Media münasibətləri kontekstində aktual olan mühüm məsələlərdən biri də peşəkar və məsuliyyəti media problemi idi. Yeni qanunda bu məsələləri tənzimləyən hüquqi mexanizmlər öz əksini tapıb. Media Reyestrinin önümüzdəki 6 ay ərzində yaradılmasının nəzərdə tutulması, jurnalistlərin tanınan hüquqlarının müdafiəsi mexanizminin təkmilləşdirilməsi və daha operativ təşkil edilməsi, tənzimlənən və tənzimlənməyən media növləri arasında dəqiq sərhədin müəyyən edilməsi mühüm nailiyyətlər kimi xarakterizə oluna bilər. Ən başlıca məsələlərdən bir yenə də jurnalistlərin məişət problemlərinin həll edilməsi və mənzil-kommunal şəraitlərinin yaxşılaşdırılmasıdır. Bu mənada jurnalistlərin güzəştli kreditlərdən yararlanmaqla mənzil problemlərini həll edə bilmələri üçün hüquqi bazanın yaradılması Azərbaycan dövlətinin jurnalistə növbəti qayğısıdır. Bu yeni yanaşma jurnalistlərin məişət problemlərini kütləvi və birbaşa həlletmə imkanları yaradır. İki kateqoriyada güzəşt hüququnun tanınması həm 5 il jurnalist kimi əmək faliyyəti olan jurnalistləri, həm də 15 illik əmək stajı əsasında çalışanları nəzərdə tutur. Bu da demək olar ki, davamlı jurnalistika fəaliyyəti ilə məşğul olan bütün jurnalistləri əhatə edir".



**Azərbaycanın iki tarixi şəxsiyyəti - mesenat Hacı Zeynalabdin Tağıyevin anadan olmasının 200 illiyi və bəstəkar Fikrət Əmirovun 100 illiyi UNESCO-nun 2022-2023-cü illər üzrə yubileylər proqramına salınıb və bu yubileylərin beynəlxalq miqyasda qeyd edilməsi təsdiq edilib.**

Deməli, UNESCO Tağıyevin yaşını 1823-cü ildən hesablayır. Lakin Tağıyevin məzarında doğum tarixi kimi 1838-ci il qeyd olunub. Eyni zamanda, ötən ay metronun "İçərişəhər" stansiyasının qarşısında ucaldılan Tağıyevin heykəlinin məlumat lövhəsində də doğum tarixi olaraq 1838-ci il yazılıb. Tağıyevin doğum tarixi ilə bağlı ziddiyyətə aydınlıq gətirmək üçün APA-nın Mədəniyyət Nazirliyinə göndərdiyi sorğuya cavab olaraq bildirilib ki, Hacı Zeynalabdin Tağıyevin doğum haqqında şəhadətnaməsində əldə olunan mənbələrə görə, 1823-cü il qeyd olunub: "Ancaq Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunda hər iki mənbədən - həm 1823-cü il, həm də 1838-ci ildən istifadə olunur. Hər iki mənbə də əsas sayılır. Hər iki versiyanın özünün əsasları var. Biri doğum haqqında şəhadətnaməyə, digəri isə qohumlarının xatirələrindən, təxmini hesablamalarından əldə olunan mənbəyə əsaslanır".

# "Tağıyev bəlkə heç özü də doğum tarixini dəqiq bilmirdi"

## Fərhad Cabbarov: "Şeyxülislamın verdiyi şəhadətnamədə niyə 1823-cü il yazılıb, bu da müəmmalıdır"

Qeyd olunub ki, Hacı Zeynalabdin Tağıyevin yaşadığı dövrdə kargüzarlıq sistemi formalaşmadığı üçün, üstəlik doğum haqqında şəhadətnaməni əldə olan istinadlara əsasən sonradan aldığına görə hər iki mənbədən də istifadə olunur. "Buna görə də Hacı Zeynalabdin Tağıyevin dəqiq anadan olduğu tarix tam bəlli deyil", - qeyd olunub.

**"Şərq"ə açıqlamasında Fərhad Cabbarov hansı səbəblərdən məhz 1838-ci ilin üzərində dayanıldığına bir daha aydınlıq gətirdi:**

- Hacı Zeynalabdin Tağıyevin 1823-cü il təvəllüdlü olduğunu göstərən bir mənbə var: Şeyxülislam tərəfindən verilmiş doğum haqqında şəhadətnamə. Amma 1838-ci il təvəllüdünə dair 3 mənbə var - N.Nərimanovun Tağıyev haqqında yazdığı kitab, Çar Rusiyasının 1846-cı ildə Bakıda keçirdiyi kameral siyahıyaalma və Tağıyevin qızı Sara xanımın söylədikləri. Lap tutalım, 2 sənədə inanmadıq, qızının söylədiyi tarixə necə inanmaya bilərik. Hər hala qızı atasının doğum tarixini dəqiq biləcəkdi. 1846-cı ildə Bakıda keçirilmiş kameral siyahıyaalma sənədləri bu gün də Milli Arxid İdarəsində qorunur. Maraqlı olan həm də budur ki, çar Rusiyası qızları yox, məhz oğlan uşaqlarını siyahıya alırdı. Siyahıya alanlar ev-ev gəzirdilər və ailədə neçə övlad olduğunu, təvəllüd tarixlərini soruşub qeydə alırdılar. H.Z.Tağıyevlə bağlı sənəddə də "Zeynalabdin Tağı oğlu Tağıyev - təvəllüd 1838-ci il" qeyd edilib. Mənə elə gəlir ki, Tağıyev bəlkə heç özü də təvəllüd tarixini dəqiq bilmirdi. Şeyxülislamın verdiyi şəhadətnamədə niyə 1823-cü il yazılıb, bu da müəmmalıdır. Bəzən insanlar doğum tarixlərini bilərəkdən dəyişdirir. Amma adətən bu, yaşın azaldılması olur. Tağıyev niyə yaşını böyütməliydi?! Bu, hələ də sirdir.

"Bir ölkənin daxilində görkəmli şəxsiyyətlə bağlı belə mabahisəli məqamın yaranması xoş deyil"

**F.Cabbarov digər mühüm bir məqama da diqqət çəkdi:**

- Burada məsələ UNESCO-nun Tağıyevin 200 illiyini nə zaman, hansı ildə qeyd edəcəyi deyil. Doğum tarixinin 1823 və ya 1838 olması da H.Z.Tağıyevin şəxsiyyətinə heç bir kölgə salmır. Amma Mədəniyyət Nazirliyinin fəaliyyətinə kölgə düşür. Cənab Prezident H.Z.Tağıyevin abidəsinin açılışını etdi və abidənin qarşısındakı lövhədə görkəmli messenatın doğum tarixi 1838-ci il qeyd edilib. Bəs Mədəniyyət Nazirliyi hansı əsasla UNESCO-ya ünvanladığı müraciətdə Tağıyevin doğum tarixini 1823-cü il göstərib? Bir ölkənin daxilində görkəmli şəxsiyyətlə bağlı belə mabahisəli məqamın yaranması xoş deyil.

**Məlahət Rzayeva**

# Türkiyə lideri də şərtlərini açıqlayacaq

## Ərdoğanla görüş Putin üçün son şansdır



**Rusiya və Türkiyə prezidentləri - Vladimir Putin və Rəcəb Tayyib Ərdoğan fevralın sonu da daxil olmaqla görüş tarixlərinin müxtəlif variantlarını müzakirə ediblər. Amma hələlik dəqiq tarixə qərar verilməyib. Bunu Kremlin mətbuat katibi Dmitri Peskov jurnalistlərə açıqlamasında bildirib.**

"İki lider həqiqətən mümkün variantlarla bağlı müzakirələr aparıblar. Fevralın sonu və başqa tarixlər müzakirə predmeti olub. Və həqiqətən də hər iki tərəf görüşün epidemioloji vəziyyət və prezidentlərin qrafikləri imkanverən kimi baş tutmasında maraqlıdır. Lakin hələlik dəqiq tarixlər yoxdur. Ümid edirik ki, bu, ən qısa zamanda baş verəcək", - deyə Kremlin sözcüsü bildirib.

Qeyd edək ki, bundan əvvəl Ərdoğan rusiyalı həmkarı Vladimir Putinin Çinə səfərindən sonra Türkiyəyə səfər edəcəyini qeyd etmişdi.

**Baş tutacaq görüşü "Şərq"ə analiz edən tanınmış jurnalist, siyasi şərhçi Fuad Abbasov hesab edir ki, V.Putin bu görüşlə son şansını istifadə edir:**

"Əlbəttə ki, hər kəsin gözləri Ukraynadadır. Putin və Ərdoğanın da görüşməsinin başlıca səbəbi Ukrayna problemini müharibə yolu ilə deyil, danışıqlar yolu ilə həll etməkdir. Fikrimcə, Ərdoğanı Ukrayna problemini həll etmək üçün prosesə qatan V.Putin son şansını istifadə edir. Bugünkü dünyada Putinin vəziyyəti doğrudan da ürəkaçan deyil. Həm iqtisadi olaraq, həm də koronavirusun gətirdiyi səbəblərdən işsizlik və pulsuzluq baş alıb gedir. Eyni zamanda, dünya bir kriz vəziyyətindədir. Bir tərəfdən də Ukrayna problemi yenidən gündəmə gəlib və rusları fakt qarşısında qoyub: ya Krım, Donbass və Luqanskı boşaltmalısınız, ya da da bütün dünya sizə qarşı müharibə açır. Bu məsələdə Avropa və ABŞ yekdildir. Məlum vəziyyətdə Türkiyəni prosesə qatan Rusiya, Ərdoğanın özünəməxsus siyasət aparan bir lider olduğunu nəzərə alaraq, ümid edir ki, bəlkə, Ərdoğan bu məsələni Rusiyanın lehinə həll edər.

**Siyasi şərhçi R.T.Ərdoğanın Rusiyaya qarşı qoya biləcəyi şərtlərdən söz açıb:**

"Tutaq ki, Ərdoğan bu və ya digər şəkildə bu məsələni Putinin və yaxud Rusiyanın maraqlarına çox da zidd getmədən həll etdi. Ərdoğan da bunu elə-belə həll etməyəcək. O, bu yerdə Moskvadan istədiklərini yerinə yetirməsini gözləyəcək. Burada əlbəttə ki, bizim üçün birinci növbədə ağla gələn Qarabağ məsələsidir. Ərdoğan Putinin qarşısında belə bir şərt qoya bilər: Mən bu məsələdə sənin tərəfinə keçirəm, sənsə Qarabağı, Azərbaycanı, ümumilikdə Cənubi Qafqazı mənə buraxırsan. İkinci Suriya məsələsi ola bilər. Ərdoğan orada müxalifəti, Putin isə Bəşər Əsədi dəstəkləyir.

Türkiyə Rusiyanın bu sahədən geri çəkilməsini məqsəd kimi gətirə bilərlər. Bundan sonra əlbəttə ki, Krım türkləri məsələsi var. Ərdoğan Putinin qarşısına Krım türklərinin haqlarını tanımaq və ya onlara üstünlük, muxtariyyət verilməsini tələb edə bilər.

Sözsüz ki, bütün bunların hamısı görüşün nəticələri açıqlandıqdan sonra məlum olacaq. Amma xatırladıram ki, Putinin Türkiyə ziyarətinin özü simvolik bir xarakter daşıyır. Çünki indiyə qədər yalnız İstanbula və Antalyaya gəlib. Putinin Ankaraya səfərini xatırlamıram. Bəlkə də bu görüşün nəticəsində Rusiya-Türkiyə əməkdaşlığı elə bir səviyyəyə gələ bilər ki, Avropa və Amerika Rusiyadan təzyiqlərini geri çəkə bilər.

Yaxud da əksinə ola bilər. Görüşdən sonra Rusiya şərtləri yerinə yetirməsə, Türkiyənin Qərbin tərəfinə keçib Rusiyaya təzyiqləri davam etdirməsi mümkündür. Ona görə gəlin görüşün nəticələrini gözləyək".

**Çimnaz Şahlar**

# "Ən səmimisi, gözəli istefa verməkdir"

## Anar İsgəndərov: “Ramiz Mehdiyev sivil yolla getməlidir”




**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti Ramiz Mehdiyevin bir sıra görkəmli alim tərəfindən istefaya çağırılması son günlərdə aktual məsələdir. Ramiz Mehdiyevin elmi ictimaiyyətə, tanınmış elm xadimlərinə müqavimət göstərərək tutduğu postdan istefa verməməsi ona qarşı çıxan alimlərin sırasını genişləndirir.**

AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun baş elmi işçisi, fəlsəfə üzrə elmlər doktoru, professor Əbülhəsən Abbasov da bu şəxslər sırasındadır. O, AMEA prezidenti Ramiz Mehdiyevi istefa verməyə çağırıb. Onun sözlərinə görə, böhranın səbəbi AMEA-nın zamanın, cəmiyyətin və müasir elmin tələbləri ilə hesablaşmamasıdır:

”AMEA bir elmi qurum olaraq müasir idarəetmə tələblərindən çox uzaqdır. Uzun illərdir ki, AMEA-da köklü islahatlara ehtiyac vardır. İlk növbədə, AMEA-nın idarə olunması, onun funksional təyinatı, missiyası üzrə ciddi işlər görülməli idi. Son illər müsbət istiqamətdə nəsə baş verməkəvəzinə, xüsusən Ramiz Mehdiyev AMEA-ya prezident olandan sonra mənfi, xoşagəlməz tendensiyalar baş alıb getdi”.

Eyni zamanda, bu gün sabiq təhsil naziri, AMEA-nın müxbir üzvü, professor, AMEA-nın Riyaziyyat və mexanika institutunun direktoru Misir Mərdanov da bu mövzuda düşüncələrini paylaşıb. O bildirib ki, əksəriyyət mövcud problemlərin həllində Ramiz Mehdiyevin bu vəzifədən getməsini yeganə çıxış yolu kimi görür. Sonda isə ”biz də belə düşünürük” deyə əlavə edib.

**Elm adamlarının böyük əksəriyyəti tərəfindən istefaya çağırılan R.Mehdiyevin istefa verməməsi haqqında ”Şərq”ə danışan tarix elmləri doktoru, professor, Milli Məclisin deputatı Anar İsgəndərov bidirib ki, AMEA prezidenti istefa verməlidir:**

”Dünyada hər hansı bir insanın xalq qarşısında, dövlət qarşısında xidməti ola bilər və olmalıdır. Amma o xidmət əbədi və sonsuz deyil. Hər bir insan öz enerjisini və ona olan münasibəti hesablamalıdır. Ramiz Mehdiyev də uzun müddət ümummilli lider Heydər Əliyevlə işləyib.

Tarixin sonrakı məqamlarında Azərbaycanın hazırkı Prezidenti İlham Əliyev cənabları ilə çalışıb. Amma bu gün AMEA-nın rəhbəri kimi işin öhdəsindən gələ bilmir. Ən gözəli və səmimisi istefa verməsidir. Buna da istefa mədəniyyəti deyilir. Bu, çoxlarına da nümunə olur.

Əgər akademiklərin böyük əksəriyyəti R.Mehdiyevə ”Siz dövrün tələblərinə cavab vermirsiniz deyə sizinlə işləyə bilmirik” deyirsə, mən belə düşünürəm ki, Ramiz müəllim də xalqına, dövlətinə, vəzifəsinə, ən əsası da AMEA-ya hörmət əlaməti olaraq bu vəzifədən getməlidir. Ramiz Mehdiyev bu vəzifədən getməklə azərbaycançılıqdan çıxmır ki, Azərbaycandan getmir ki, Azərbaycana xəyanətlə suçlanmır ki?!”.

**Deputat hesab edir ki, R.Mehdiyev yaşı ilə əlaqədar olaraq, fiziki cəhətdən akademiyanın qarşısında duran tələbləri həyata keçirə bilmir:**

”Elələri var tələb edir, bəlkə də təhqir edir... Mən bunlara qarşıyam. Bir daha deyirəm, bu günə qədər Ramiz Mehdiyev uzun müddət dövlət işlərində çalışan bir insan kimi bütün bunları görməli, sivil yolla da getməlidir. Burada qeyri-adi bir şey yoxdur. O, nə qədər tez gedəcəksə, öz hörmətini qorumuş olacaq. AMEA-ya böyük ehtiramını göstərmiş olacaq. Fikirləşirəm ki, bu məsələ tezliklə həll yolunu tapmalıdır”.

**Çimnaz Şahlar**



**”Ermənistan tərəfi Azərbaycanla münasibətlərin normallaşması prosesinə dair ziddiyyətli açıqlamalar verir və öhdəliklərə əməl etmir”.**

”Şərq”in məlumatına görə, bunu Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov moldovalı həmkarı Niku Popesku ilə keçirdiyi mətbuat konfransında deyib. Nazir bildirib ki, Azərbaycanla Ermənistan arasında normallaşma prosesi dövlət sərhədinin müəyyənləşməsindən keçir.

# Antiterror tezisi önə çəkilməlidir

## Moskva delimitasiya, demarkasiya məsələsində maraqlı deyil

**Məsələ ilə bağlı ”Şərq”ə danışan siyasi şərhçi Rusif Məmmədsoy Ermənistanın delimitasiya və demarkasiya proseslərinə başlaması ilə bağlı hər hansı bir müsbət addım atmamasının narahatlıq doğurduğunu bildirib:**

”Bu məsələnin birmənalı şəkildə yetişməsini istəyirik ki, nəticədə sülh müqaviləsi imzalansın, atəşkəs pozulmasın, qonşuluq münasibətləri formalaşsın, sülhməramlıların çıxması üçün zəmin yaransın. Problem təkcə Ermənistan deyil. Eyni zamanda Rusiyanı da nəzərə almalıyıq. Moskva delimitasiya, demarkasiya məsələsində maraqlı deyil”.

*Ekspert hesab edir ki, Rusiyanı maraqlandıran Zəngəzur dəhlizi və kommunikasiyaların açılmasıdır:*

”Bundan əlavə münaqişənin tamamilə sönməsi onun maraq dairəsinə cavab vermir. Biz hər vəchlə çalışmalıyıq ki, bu prosesləri sürətləndirək. Həm Ermənistan daxilində, həm Qarabağdakı separatçılar arasında şimal qonşumuzla bağlı qüvvələr var. Onlar hər şeyə mane olmağa çalışır, atəşkəsi pozur”.

Politoloq Azərbaycanın Rusiyaya qarşı müəyyən addımlar ata biləcəyini qeyd edib:

”Azərbaycanı ”tələyə” salmaq istəyirlər. Əlbəttə, biz emosiyalara qapılmamalıyıq. Kremlə daha sərt ritorika ilə cavab verməliyik ki, artıq yetər! Sən bu prosesləri sürətləndirməlisən, öhdəliklərini yerinə yetirməlisən, 10 noyabr bəyannaməsinin dördüncü bəndinə əsasən erməni separatçılarını qovmalısan. Əks halda antiterror əməliyyatlarına start verə bilərik. Bu tezis artıq önə sürülməlidir”.

**R.Məmmədsoyun fikrincə, Ermənistan Bakının çağırışlarına müsbət qərarlar verməsə, çökməyə məruz qalacaq:**

”Digər tərəfdən ötən il dekabrın sonlarına yaxın Rusiyada delimitasiya və demarkasiya ilə bağlı görüş keçirildi. Ermənistan isə Azərbaycanın şərtlərinin onu qane etmədiyini dedi. Biz qalib ölkəyik. Diktə edən tərəf kimi şərtlərimiz olmalıdır. Buna görə də Ermənistan növbəti ”Dəmir yumruq” istəmirsə, bu proseslərə başlamalıdır. Bunu Rusiyaya rəğmən etməlidir. Həmçinin Türkiyə və Azərbaycan arasında qalan Ermənistan məhvə məhkumdur. Buna görə də onun başqa çarəsi yoxdur. Uzağı, 10-15 il dözə bilər. Bu aspektdən rəsmi İrəvan və rəsmi Bakı ilə normal əlaqələr qurulmalıdır”.

**Cəmilə ƏZİM**



# "Reyestrə daxil olmamaq jurnalistikadan kənarda qalmaq deyil"

## Ceyhun Musaoğlu: “Milli media dövlətin sütunlarından biridir”

**Prezident İlham Əliyev ”Media haqqında” qanunu təsdiqləyib. Sənəd media sahəsində fəaliyyətin təşkilatı, hüquqi və iqtisadi əsaslarını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edir.**

*Yeni qanunun vəd etdiyi perspektivlər barədə ”Şərq”ə danışan ”Jurnalist Ekspert Mərkəzi” İctimai Birliyinin sədri, ”Rupor.az” saytının baş redaktoru Ceyhun Musaoğlu bildirib ki, bu qanun təsdiq edilməzdən öncə ciddi müzakirələrə səbəb olub:*

”Onun formalaşmasında jurnalistikanın bütün təbəqələri iştirak etdi. Bizdə ”KİV haqqında” qanun 18 ildir dəyişmir, əlavə və dəyişikliklər edilmirdi. Görünən o idi ki, jurnalistikanın bu qədər inkişafına baxmayaraq o, donub qalıb. Yeni qanunun qəbuluna böyük zərurət var idi”.

*C.Musaoğlunun fikrincə, hər bir ölkənin mətbuatı dünyəvi olduğu qədər də millidir və bu qanun da milli informasiya mühitinin sağlamlaşdırılmasına xidmət edir:*

”Bizdə milli informasiya mühitini bir qədər yanlış anlayırdılar. Bu müstəvidə yayılan xəbərlərin də sayı az, milli mətbuat deyilən anlayışsa sıradan çıxmaq üzrə idi. Milli media dövlətin sütunlarından biridir. O, ölkənin bu gününü, dünənini unutmağa imkan vermir və onun gələcəyini hazırlayır. Bu mənada milli informasiya mühitinin sağlamlaşması üçün yeni qanun önəmlidir”.

Baş yazar ”Media haqqında” qanun layihəsinin müsbət tərəflərindən söz açıb:

”Yeni qanun informasiya resurslarının güclənməsi, plüralizmin qorunması, rəqabət mühitinin yaranması, peşəkarlıq meyarlarının müəyyənləşdirilməsi üçün geniş imkanlar yaradır. Bildiyimiz kimi jurnalistika azad sahədir. Ora istənilən şəxs gəlib fəaliyyət göstərə bilər. Amma bu fəaliyyətin hansı səviyyədə olacağı önəmlidir. Bir ara bu sahə genişləndi və kim necə gəldi fəaliyyətə başladı. Yeni qanunsa həm hüquqi, həm mənəvi, həm də peşəkarlıq sərhədlərini müəyyənləşdirir. ”Jurnalist necə olmalıdır” sualına tam şəkildə cavab verilir. Digər tərəfdən jurnalistlərin sosial rifahının yaxşılaşdırılması da ciddi məsələlərdən biri idi. Bu qanun açıq şəkildə onlara güzəştlərdən, imtiyazlardan yararlanmaq imkanı tanıdı”.

**C.Musaoğlu yeni qanunda əksini tapan reyestr məsələsinə diqqət çəkib:**

”Orda media reyestri ilə bağlı bəndlər var. Onları diqqətlə nəzərdən keçirdikdə məlum olur ki, media reyestrindən keçmək jurnalistlər üçün müsbət olacaq. Ən azından onların konkret sayı bilinəcək. Bu da jurnalistlərin sosial rifahının yaxşılaşdırılması istiqamətində müəyyən işlərin görülməsini asanlaşdıracaq. Media reyestrinə daxil olmamaq heç də jurnalistikadan kənarda qalmaq deyil. Əgər sən qanunun tələblərinə əməl edib, peşəkar jurnalistika ilə məşğul olursansa, jurnalistsən. Bu reyestr sadəcə olaraq jurnalistlərin vəziyyətini müəyyənləşdirəcək”. Baş yazar hesab edir ki, ”Media haqqında” qanun mütərəqqi xarakter daşıyır və orda əks olunan şərtlər jurnalistika mühitinin daha da inkişafına xidmət edir.

**Günəş Mərd**

# 7 dəfə vaksin vurdurub

## Jirinovskinin vəziyyəti ağırdır



**75 yaşlı LDPR lideri Vladimir Jirinovskinin COVID-19-a qarşı yeddi peyvənd almasına baxmayaraq, koronavirusla Mərkəzi Klinik Xəstəxanaya yerləşdirilib.**

Bu haqda vəziyyətlə tanış olan mənbə bildirib.

Eyni zamanda, mediada yayılan məlumatlara görə, onun vəziyyəti kifayət qədər həyəcanvericidir və siyasətçi süni nəfəs aparatına qoşula bilər.

”Bəli, o, hazırda Mərkəzi Klinik Xəstəxanadadır”, - RİA Novosti agentliyi mənbəyə istinadən bildirib. Xəstəxananın özü bu məlumatı şərh etməkdən imtina edib. Partiyanın mətbuat xidməti bildirib ki, Vladimir Jirinovski özünü yaxşı hiss edir və fəaliyyətini davam etdirir. Eyni zamanda, ”Maş” telegram kanalı öz məlumatlarına istinadən iddia edir ki, Jirinovskiyə xəstəxanada 50-75% ağciyər zədəsi diaqnozu qoyulub, ona görə də siyasətçinin süni nəfəs aparatına qoşula biləcəyi istisna edilmir. ”Liberal Demokrat Partiyasının sədri koronavirus fonunda inkişaf edən ikitərəfli pnevmoniya diaqnozu ilə xəstəxanaya yerləşdirilib. Zərərin orta ağırlıq dərəcəsi KT-3-dür”, - məlumatda deyilir.

# Gələcək yoxdur...

## Əcnəbilər mülklərini satıb Ermənistanı tərk edirlər

**Ermənistandakı qeyri-sabit siyasi-iqtisadi vəziyyət əcnəbilərin ölkədən getməsinə gətirib çıxarıb. Ermənistanın əmlak alqı-satqısı üzrə statistik göstəricilərinə əsasən ötən il əcnəbilərin Ermənistandakı əmlaklarını satması əvvəlki illərlə müqayisədə 2-3 dəfədən çox artıb. 2021-ci ildə Ermənistanda 3155 əmlak satılıb. Bu da artıq Ermənistandakı əcnəbilərin ölkəyə etibarının itdiyinin və tezliklə ölkəni tərk etmək istəməsinin göstəricisidir.**



### Artıq cəmiyyət də Ermənistan rəhbərliyinin yalançı statistikalarına inanmırlar

Ermənistanın kənd təsərrüfatına yatırım edən əcnəbilər də artıq ölkədən getməyə çalışırlar. 2021-ci il ərzində Ermənistanda xarici ölkə vətəndaşları tərəfindən kənd təsərrüfatına yararlı 5 torpaq sahəsi alınıb. Qarşılığında isə 516 bu tipli torpaq sahəsi əcnəbilər tərəfindən satılıb. Yəni artıq xarici vətəndaşların Ermənistan kənd təsərrüfatı torpaqlarına marağı kəskin azalıb. Ermənistanda əmlaklarını satan əcnəbilər arasında Rusiya vətəndaşları isə daha çoxdur. Rusiya vətəndaşları tərəfindən Ermənistanda 1627 mənzil satılıb və əvəzində cəmi 560 mənzil alınıb. Görünən odur ki, Rusiya vətəndaşları Ermənistandakı daşınmaz əmlaklarından tez bir zamanda qurtulmağa çalışırlar. Qeyd edək ki, Ermənistandakı Rusiya vətəndaşlarının əksəriyyətini heç də ruslar deyil, onların əksəriyyəti Rusiya vətəndaşlığı almış ermənilərdir. İkinci Qarabağ müharibəsindən sonra Ermənistanda yaranmış çətin vəziyyət onların marağının azalmasına səbəb olub.

**Siyasi şərhçi Anar İmanov ”Şərq”ə bildirib ki, Ermənistandan qaçanların hamısı bilir ki, Ermənistanın gələcəyi yoxdur. Analitik vurğulayıb ki, müharibədə məğlub olan Ermənistan sülh müqaviləsini imzalamalı, gələcəyə hədəflənmiş addımları atmalıdır:** ”Amma biz bunu görmürük. Əvəzində Ermənistan təxribatlara əl atır, oradakı bəzi faşist elementlər yenə başlarını qaldırır. İkinci Qarabağ müharibəsindən sonra Ermənistanın atdığı və yaxud vaxtında atmadığı addımlar ölkəni daha da böyük faciəyə sürükləyir. İmkanı olan ölkədən qaçır, imkanı olmayan isə növbəsini gözləyir, yaxın gələcəkdə qaçmağı düşünür. Son illərdə Ermənistanda tənəzzül daha da dərinləşib. Əhali ölkədən qaçır, sosial vəziyyət pisləşib. Getdikcə Ermənistan mediasında ölkənin pis vəziyyətə düşməsi haqqında yazılar çoxalır. Əcnəbilərə gəldikdə, qeyd edim ki, son 4 ildə onlar 5 min 845 mənzil satıblar. Satanların çoxu Rusiya vətəndaşlarıdır. Bunların da çoxusu kütləvi halda emiqrasiya edən, Rusiya vətəndaşlığını qəbul edən ermənilərdir. Yəni ermənilərin çoxu artıq Ermənistanla bütün bağları qırırlar. Onlar bu ölkədə yaşamaq istəmir və birdəfəlik oranı tərk edirlər. Rəsmi statistikaya görə, keçən il 103 min erməni ölkəni tərk edib. Bu da ümumi əhalinin 3 faizinə bərabərdir. 1991-ci ildən hesablayanda bu rəqəmlər 600 min və 15 faizdir. Bu gedişlə, ölkədən qaçış dayanmasa, ya da azalmasa, uzağı 30 ilə Ermənistanda heç kim qalmayacaq”.

*Ekspert vurğulayıb ki, ölkə üçün acınacaqlı, biabırçı vəziyyətdə ölkə rəhbərliyi əhaliyə nağıl danışır, əldə olunan ”yüksək göstəricilərdən” bəhs edir:*

”Onun yalanlarını isə elə Ermənistanda qalan iqtisadçılar ifşa edir. Məsələn, iqtisadçı Suren Parsyan Ermənistanın 2021-ci ildə ”rekord” iş sayına şübhə ilə yanaşır. Deyir ki, ”Əgər söhbət 650 min iş yerindən, yəni 2020-ci illə müqayisədə 50 min iş yerindən, orta əmək haqqının isə 7,8 faiz artımından gedirsə, bu, büdcəyə vergi daxilolmalarının artması ilə ifadə edilməli idi. Yəni əmək haqqından tutulan vergilər artmalı idi. Lakin ötən illə müqayisədə biz cəmi 3-4 faiz artım görürük”. İqtisadçının fikrincə, bunun iki izahı ola bilər: ya iş yerlərinin sayı səhv göstərilib, ya da dövlət vergiləri yığa bilməyib. İqtisadçı hesab edir ki, qeydiyyatdan keçmiş iş yerləri əslində yeni deyil, sadəcə olaraq, əvvəllər qeydiyyatdan keçməyənlər ”kölgədən” çıxıb. Ona görə də bu rəqəmlər insanların həyat səviyyəsini heç bir şəkildə yaxşılaşdırmadı. Parsyan rəsmi statistikada da yoxsulluğun səviyyəsinin artdığını xatırladır. Onun fikrincə, ölkədə inflyasiya daha da artacaq və bu, əhalinin kəskin yoxsullaşmasına gətirib çıxaracaq. Bu isə nəticədə emiqrasiyaya daha güclü təkan verəcək”.

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili - Azərbaycan dövlətçiliyi müasir mərhələdə**



# İrəvan Müəllimlər Seminariyası çox böyük şəxsiyyətlər yetişdirib

## Seminariya mənbəyini türk mədəniyyəti, türk elmindən alıb

**Bakı Şəhəri üzrə Təhsil İdarəsi İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi ilə bağlı tədbirlər müəyyənləşdirib. İdarədən verilən məlumata görə, müvafiq əmrlə təsdiqlənmiş Tədbirlər Planına əsasən, "İrəvan Müəllimlər Seminariyasının milli təhsil tariximizdə yeri və rolu" mövzusunda "dəyirmi masa", seminar, görüş, sərgi və disputların təşkili nəzərdə tutulur.**

"XIX əsrdə regionda dünyəvi təhsil verən İrəvan Müəllimlər Seminariyasının müəllimləri və məzunları" mövzusunda məktəbdənkənar təhsil müəssisələrinin dərnək üzvləri arasında esse müsabiqəsi keçiriləcək. Həmçinin görkəmli maarifpərvər ziyalı Firudin bəy Köçərlinin İrəvan Müəllimlər Seminariyasında müəllim kimi fəaliyyəti ilə bağlı Firudin bəy Köçərli adına Respublika Uşaq Kitabxanasında məktəblilərin iştirakı ilə görüşün təşkil olunması planlaşdırılır. Bundan başqa, İrəvan Müəllimlər Seminariyasının 140 illik yubileyi ilə bağlı tədbirlərin kütləvi informasiya vasitələrində işıqlandırılması, seminariyanın tarixi və məzunları haqqında proqramların təşkili, "Azərbaycan müəllimi" qəzetində və "Azərbaycan məktəbi" jurnalında məqalələrin dərc olunması nəzərdə tutulur. İrəvan Müəllimlər Seminariyasının əzəli türk torpaqları olan İrəvan xanlığı ərazisində maarifçiliyin inkişafında xidmətləri əvəzsizdir. Bu seminariyanın məzunları təkcə Azərbaycan elmi, ədəbiyyatı və mədəniyyətinə deyil, dünya elminə yüksək töhfələr verib. Təkcə akademik Mustafa bəy Topçubaşovu xatırlatmaq yetərlidir ki, seminariyanın dünya elminə necə yüksək xidmət göstərdiyi aydın olsun.

**Siyasi elmlər üzrə fəlsəfə doktoru Qafar Çaxmaqlı "Şərq"ə açıqlamasında bildirdi ki, İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi təqdirəlayiq hal və sevindirici hadisədir:**

- İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi əhəmiyyətli tarixi hadisədir. Bu, Azərbaycan türklərinin çar Rusiyası dövründə İrəvan quberniyası ərazisində mədəni irsinin mövcudluğunu təsdiqləyir. İrəvan Müəllimlər Seminariyasının varlığı sübut edir ki, Azərbaycan türklərinin əzəli torpaqları, dədə-baba yurdu olan Qərbi Azərbaycanda köklü, əsaslı maarifçilik, elm, təhsil, mədəniyyət inkişaf etmişdi. İrəvan Müəllimlər Seminariyası 1881-ci ildə fəaliyyətə başlayıb. Q.Qənbərov, Məmmədbağır Qazızadə müxtəlif vaxtlarda seminariyanın direktoru olublar. O vaxt təkcə İrəvanda deyil, başqa bölgələrdə də seminariyalar fəaliyyət göstərirdi. Onlardan biri də Qori Müəllimlər Seminariyası idi. Qori Müəllimlər Seminariyasının Azərbaycan ziyalılarının yetişməsində hansı xidmətləri olubsa, İrəvan Müəllimlər Seminariyası da eynilə o xidməti göstərib. İrəvan quberniyasının Çar imperiyasının işğal etdiyi Qafqaz regionunda xüsusi əhəmiyyəti vardı. Məlumdur ki, İrəvan quberniyasının əhalisinin böyük əksəriyyəti müsəlman türklər idi. Ermənilərin sonradan bu torpaqlara köçürüldüyü və məskunlaşmağa başladıqları artıq sübuta yetirilmiş tarixi faktlardır. İrəvan Müəllimlər Seminariyası mənbəyini türk mədəniyyəti, türk elmindən alıb. Və dahi şəxsiyyətlər yetişdirib. Bu həm də seminariyada dərs deyən müəllimlərin əməyinin nəticəsi idi. Məsələn, maarifpərvər ziyalımız Cəlil Məmmədquluzadə Zəngibasar mahalında Uluxanlı kəndində açılmış ilk dünyəvi məktəbdə müəllimlik fəaliyyətinə başlayıb. Azərbaycanın görkəmli maarifçisi, pedaqoq, Azərbaycan ədəbiyyat tarixi elminin banisi Firudin bəy Köçərli Qori Seminariyasını bitirdikdən sonra İrəvan gimnaziyasına təyinat alıb. Burada ana dili, hüsnxətt fənlərini tədris edib, pansion mürəbbisinin köməkçisi vəzifəsini daşıyıb. Müxtəlif rütbələr alıb. Bir neçə il işlədikdən sonra yenidən Qori Müəllimlər Seminariyasının "tatar şöbəsi"nin Azərbaycan dili və şəriət müəllimi təyin edilib, pedaqoji fəaliyyətini davam etdirib. 1918-ci ildə isə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini tədris ləvazimatı və avadanlığı ilə birlikdə öz xərcinə Qazax şəhərinə köçürüb, bunun əsasında Azərbaycan Müəllimlər Seminariyasını təşkil edib, seminariyanın direktoru olub. Görkəmli maarifçi Haşım bəy Vəzirov həm bu seminariyada təhsil alıb, təhsilini başa vurduqdan sonra orada müəllimlik edib. Akademik Mustafa bəy Topçubaşov İrəvan Müəllimlər Seminariyasının tələbəsi olub. Bilirsiniz ki, M.b.Tobçubaşov tibb sahəsində bir sıra yeniliklərə imza atmış görkəmli alimdir. Topçubaşovlar nəslinin davamçıları da eynilə maarifpərvər şəxslər, elm, mədəniyyət xadimləri olublar. İrəvan Müəllimlər Seminariyası çox böyük şəxsiyyətlər yetişdirib. Elə anlaşılmasın ki, orda milliyyətcə erməni olan müəllimlər dərs deyirdi. Seminariyanın müəllimləri Azərbaycan türkləri olan görkəmli ziyalılar idi. Azərbaycanda ibtidai kənd məktəblərinin yaradılması işində Qori Müəllimlər Seminariyasının məzunları ilə yanaşı İrəvan Müəllimlər Seminariyasını bitirmiş məzunlar da yaxından iştirak edirdilər. İlk pedaqoji təhsilini həmin seminariyada almış bir sıra azərbaycanlı gənclər sonralar təhsillərini Rusiya və Avropanın müxtəlif ali təhsil ocaqlarında davam etdirərək Azərbaycana qayıdıb, ölkəmizdə elm, mədəni-maarif işlərinin, habelə iqtisadiyyatın müxtəlif sahələrinin inkişaf etdirilməsində yaxından iştirak ediblər. Xalqımızın maarif fədailəri - Həmid bəy Şahtaxtinski, Haşım bəy Nərimanbəyov, Tağı bəy Səfiyev, Vahid Musabəyov, Fərrux Ağakişibəyov, İbadulla Muğanlinski, Ş.Mahmudbəyov, C.Məmmədov və başqaları vaxtilə ilk pedaqoji təhsillərini İrəvan Müəllimlər Seminariyasında alıblar. Seminariyanın məzunları arasında sonralar hərb sahəsində tanınan görkəmli şəxslər də var.

### Qafar Çaxmaqlı: "İnanıram ki, bundan sonra bu elm ocağının tarixi daha geniş tədqiq olunacaq"

**Q.Çaxmaqlı qeyd etdi ki, seminariyanın 140 illiyinin qeyd edilməsi əlbəttə təqdirəlayiq haldır və böyük əhəmiyyət daşıyır. Lakin seminariyanın tarixi daha geniş tədqiq olunmalıdır:**

- İndiyədək bir qədər səthi tədqiqat işləri aparılıb. İnanıram ki, bundan sonra İrəvan Müəllimlər Seminariyasının tarixi daha geniş tədqiq olunacaq, çünki buna ehtiyac var. Biz mədəni irsimizə mütləq sahib çıxmalıyıq. Dünyaya bir daha nümayiş etdirməliyik ki, İrəvan qədim türk torpağı və türk şəhəridir.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# "İşbazlar, dələduzlar ictimai nəzarət sektorlarına daraşıblar"

## Çingiz Qənizadə: "Qanunvericiliyə bir daha nəzər salınmalıdır"

**Prezident İlham Əliyev ictimai nəzarətin vacibliyini son vaxtlar tez-tez vurğulayır. O qeyd edir ki, bəzi problemlər barədə mətbuatdan xəbər tutur, nəinki ona "məruzə edən məmurlardan".**

İctimai nəzarət dedikdə də ilk növbədə kütləvi informasiya vasitələri, vətəndaş cəmiyyəti və qeyri-hökumət təşkilatları yada düşür. Amma bəzən adıçəkilən qurumlar öz vəzifə səlahiyyətlərini aşaraq dələduzluq edirlər. Məsələn, ötənlərdə "Yeni İctimai Nəzarət Şurası" rəhbəri Ramil Şükurov, eləcə də özünü "İctimai Nəzarət Koalisiyası" İctimai Birliyinin sədri kimi təqdim edən Rasim Məmmədovun həbsi QHT və bu sayaq təşkilatların qeyri-şəffaf fəaliyyətini gündəmə gətirdi.

**Vəziyyəti dəyərləndirən hüquq müdafiəçisi, sabiq millət vəkili Çingiz Qənizadə "Şərq"ə deyib ki, qanunvericilikdə bu sahəyə dair kifayət qədər boşluqlar var:**

"İctimai nəzarətlə bağlı həbs olunan son iki şəxsin hər ikisinin əvvəllər məhkumluq həyatı yaşadığı məlum olub. Dövlət başçısı ictimai nəzarət şuralarına üstünlük verilməsi ilə bağlı çağırış edib. Deyib ki, onların neqativ halların aradan qaldırılmasında və məlumatların çatdırılmasında böyük rolu var. Belə münbit şəraitin yarandığını görən bu cür işbazlar da dərhal qeydiyyatdan keçməyən təşkilatlar yaradaraq insanların pullarını mənimsəyir və öz əvvəlki cinayətkar əməllərini Qeyri-hökumət təşkilatları (QHT) adı altında həyata keçirməyə çalışırlar. Bu təşkilatların öz rəsmi blanklarını, möhürlərini hardan əldə etdiyi isə heç kəsə bəlli deyil".

*Hüquq müdafiəçisi Rasim Məmmədovun həbsinə diqqət çəkib:*

"R.Məmmədov "Azərbaycan" nəşriyyatında binanın 8-ci mərtəbəsinin bir hissəsinə təşkilatın adını böyük bir şüar kimi yazıb. Bilmək olmur belə adamlar hansı səlahiyyətlərlə dövlət orqanlarına aid olan inzibati binalarda icarəyə yerlər götürüb fəaliyyət göstərirlər. Üstəlik, bu azmış kimi o, orda çalışan digər əməkdaşları da gözümçıxdıya salıb".

Ç.Qənizadə hesab edir ki, hazırda yaramaz işbazlar və dələduzlar QHT-lərə, ictimai nəzarət sektorlarına daraşıblar. Bu kimi hallar bundan sonra da olacaq:

"İnsanlar qeydiyyata alınmadan jurnalist, QHT rəhbəri kimi fəaliyyət göstərirlər. Bu istiqamətdə qanunlarda olan boşluqlar belə işlərə şərait yaradır. Qanunvericiliyə bir daha nəzər salınmalıdır. Belə adamların qanunsuz fəaliyyət göstərməsinin qarşısının alınması üçün orda müəyyən dəyişikliklər edilməlidir" .

**Günəş Mərd**

# Qazilər haqqında filmlərin hazırlanması təqdirəlayiqdir

## Onların keçdiyi döyüş yolu gənclərə örnək olmalıdır




**Qazi haqqında Mədəniyyət Nazirliyinin layihəsi çərçivəsində film hazırlanıb.**

Bu barədə Mədəniyyət naziri Anar Kərimov tviter hesabında yazıb:

"Mədəniyyət Nazirliyinin "Səhnədən Səngərə: Qazilər" layihəsi çərçivəsində Balakən 1 saylı sənətkarlıq klubunun müdiri qazi Turan Musayev haqqında film hazırlanıb. Vətən öz qəhrəman övladlarını tanımalıdır. İgidlərimizlə fəxr edirik. Unutmadıq, unutdurmarıq!".

**Ehtiyatda olan zabit, qazi, jurnalist İlham Tumas "Şərq"ə açıqlamasında bu addımı müsbət dəyərləndirib:**

"İlk olaraq qazilərin qayğısına qalmaq lazımdır. Müharibə dövründə onların keçdiyi döyüş yolu gənclərə örnək olmalıdır. Gələcək nəsillərə nümunə olan hərəkətlər, əməllər kinolarda öz əksini tapmalıdır. Qazilər haqqında filmlərin hazırlanması vacib, təqdirəlayiq addımdır".

**Sücayət Mehti**

# Səsini çıxaran yoxdur

## Murdar heyvanların satışı bələdiyyələrin, ictimai fəalların, həkimlərin gözləri qarşısında baş verir





**İstifadəyə yararsız 4 ton at və mal əti satışını həyata keçirən mütəşəkkil dəstənin üzvləri saxlanılıb.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən Qida Təhlükəsizliyi Agentliyinin mütəxəssislərinin iştirakı ilə vətəndaşların ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində növbəti uğurlu əməliyyat tədbiri həyata keçirilib. Tədbir zamanı Xaçmaz rayonunda ət tədarükü məntəqəsi yaradıb heyvan kəsimi sexi görüntüsü adı altında pərdələnərək qidaya yararsız, ölü at və iri buynuzlu heyvan ətinin satışı ilə məşğul olan mütəşəkkil dəstənin üzvləri ifşa olunaraq məsuliyyətə cəlb ediliblər. Toplanmış materiallar əsasında müəyyən edilib ki, Xaçmaz rayon sakini Azik Babayev başçılıq etdiyi dəstənin üzvləri Hatəm Bayramov və Yalçın Babalıyevlə birgə ölmüş at və iri buynuzlu heyvanların ətinin toplanması, tədarükü və satışı ilə məşğul olublar. Bu məqsədlə Azik Babayev Xaçmaz və ətraf rayonlardan xəstə, artıq təsərrüfatda istifadə edilməyən və ölmüş atları ucuz qiymətə alaraq özünə məxsus Xaçmaz rayonunda yerləşən fermalarda toplayıb. Daha sonra orada dəstə üzvləri tərəfindən həmin heyvanların kəsimi həyata keçirilib. Qidaya yararsız at ətinin sümükləri ayrılandan sonra mal əti adı ilə Azik Babayev tərəfindən Bakı şəhərində fəaliyyət göstərən müxtəlif ictimai iaşə obyektlərinə satılıb. Baş İdarənin əməkdaşları tərəfindən Azik Babayevə məxsus fermalara və saxlama yerlərinə baxış keçirilərkən qidaya yararsız, mənşəyi məlum olmayan 4 tondan artıq mal və at əti aşkar olunaraq maddi sübüt kimi götürülüb. Təyin olunmuş müvafiq ekspertizalarla aşkar olunmuş ətin qidaya tam yararsız və insan sağlamlığı üçün ciddi təhlükə mənbəyi olması təsdiq edilib. Faktla bağlı Baş İdarənin İstintaq və Təhqiqat İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb.

Dəstə başçısı Azik Babayev və Hatəm Bayramov barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib. Mütəşəkkil dəstə ilə əlbir olan digər şəxslərin də müəyyən edilərək saxlanılması və istintaqa cəlb edilmələri istiqamətində əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Azərbaycanda yararsız ət satışı problemi illərdir mövcuddur və bu fəaliyyət şəbəkələşmiş formada bu gün də davam etdirilir.

**Məsələ ilə bağlı "Şərq"ə danışan Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynovun sözlərinə görə, dövlət qurumları bu məsələyə etinasız yanaşır.**

"20 ildən artıqdır ki, bu işlə məşğul olanları təqib edirik. Ölmüş heyvanların, at və eşşək əti satanların vizit kartları, telefonları var. Biz dəfələrlə bunları ifşa etmək üçün işlər aparmışıq. Hətta mən 15 il öncə onların Bakıda mərkəzləşmiş yerini müəyyən edərək dövlət qurumlarına müraciət etdim. Ancaq yalnız Daxili İşlər Nazirliyindən bildirdilər ki, biz sizin təhlükəsizliyinizi təmin edə bilərik. Digər qurumlar, nazirliklər heç biri bu məsələyə yaxın durmadı.

Bu sahədə ən uğurlu işi DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi görür. Çünki onlar cərimə yazıb buraxmır, həbs edir. Ancaq nədənsə məhkəmələr bir müddət sonra bu adamlara bəraət verərək buraxır.

Nəticədə belə bir şəraitdə, cəzasızlıq mühitində bu işlər davam etdirilir. Qanunvericiliyə görə qeyri-ənənəvi heyvanların ətinin satılması qadağan deyil. Lakin ölmüş, murdar heyvanların ətinin satılması qadağandır və təhlükəlidir.

Məsələn, Sabirabadın Xəlfəli kəndində belə bir hal var idi. DİN orada bu problemə son qoydu. Təəssüf ki, bu məsələlər hamısı bələdiyyələrin, ictimai fəalların, həkimlərin gözü önündə baş verir.

Bu cəmiyyətin zəif müdafiə olunmasından qaynaqlanır. Ciddi cəza tədbirləri görülməli və buna son qoyulmalıdır".

*Ekspert qeyd edib ki, Qida Təhlükəsizliyi Agentliyinin də bu sahədə fəaliyyəti zəifdir:*

"Onların bütün regionlarda şəbəkələri var, ancaq bu imkandan yaxşı istifadə etmirlər. İndi agentlik heyvanların identifikasiyası məsələsini həyata keçirmək istəyir. Heyvanların dünyaya gələndən ölənə qədər izlənməsi sistemi tətbiq olunandan sonra məsələyə son qoyulacaqdır. Amma hazırda ölkədə identifikasiya heç 1 faiz də yerinə yetirilməyib. Düşünürəm ki, bu məsələ yaxın 7 ildə həll olunacaq və bu biabırçılıq Azərbaycan tarixindən silinəcək".

**Sənan İsmayıl**

# Əvvəllər ətir qoxusu gələrdi...

## Azərbaycanda siqaret çəkən qadınların sayı kəskin artıb



**Tütün dünya əhalisinin qarşısı alına bilinən əsas ölüm səbəblərindəndir. Hesablamalara görə, tütünün törətdiyi xəstəliklər nəticəsində hazırda dünyada hər il 8 milyondan artıq insan ölür. Onların 1 milyonu ətrafa yayılan tütün tüstüsü ilə nəfəs alan passiv tütün çəkənlərdir.**

XX əsrdə tütün epidemiyası bütün dünyada 100 milyon insanın həyatına son qoyduğu halda, XXI əsrdə tütündən 1 milyard insanın ölümü gözlənilir.

*Bəs, Azərbaycanda tütünlə bağlı vəziyyət nə yerdədir və ondan imtinaya zərurət varmı?*

İnvaziv kardioloq Samir Mustafayev "Sputnik Azərbaycan"a açıqlamasında dünyada və Azərbaycanda problemin aktuallığından danışaraq bildirib ki, tütünün insan orqanizminə ziyanları haqqında nə qədər çox təbliğat aparılsa da, təəssüflər olsun ki, ondan istifadə edənlərin sayı getdikcə artmaqdadır.

Onun sözlərinə görə, son zamanlar Azərbaycanda siqaret çəkən gənc qadınların sayında artım müşahidə olunur:

"Azərbaycanda aparılan tədqiqatların nəticəsinə əsasən, qadınlar arasında tütünçəkmə 1,5 faiz təşkil edir. Lakin nəzərə alsaq ki, qadınlar məlumatın gizlədilməsinə meyillidirlər, ona görə həmin statistikanı etibarlı hesab etmək olmaz. Yəni qadınlar siqaret çəkdiklərini daha çox gizlədirlər. Bəzən deyirlər, siqaret çəkən qadınların sayı artıb. Nəticə olaraq da süd vəzi xərçəngindən əziyyət çəkən qadınların sayı artıb. Çünki siqaretin tərkibində olan kanserogen törəmələr birmənalı olaraq xərçəng yaradır".

### *"Hamiləlik dövründə siqaret çəkən qadınların dünyaya gətirdikləri övladları cinayətə daha çox meyilli olurlar"*

S.Mustafayev deyib ki, Harvardda aparılan tədqiqat nəticəsində bəlli olub ki, hamiləlik dövründə siqaret çəkən qadınların dünyaya gətirdikləri övladları cinayətə daha çox meyilli olurlar.

**Problemin psixoloji tərəfləri ilə bağlı "Şərq"ə danışan psixoloq Gülnar Orucova son zamanlar siqaretin dəb halını aldığını bildirib.**

"Əvvəllər Azərbaycanda siqaret çəkən qadınların sayı qat-qat aşağı idi. Ancaq bu gün onların sayı kifayət qədərdir və əvvəllər sadəcə gizli məkanlarda bunu edirdilərsə, indi açıq məkanlarda rahat şəkildə çəkirlər. Bəzən bunu avropalılaşmaq, yenilik kimi görürük. Amma əslində onun zərərli tərəflərini oxusaq daha çox yenilənmiş, maariflənmiş olacağıq.

İndiki dövrdə qadınlar arasında belə halların artmasında bilavasitə sosial şəbəkələrin rolu böyükdür. Burada gənclərlə yanaşı ölkənin sayılan, tanınmış adamları da əllərində siqaretlə müxtəlif videolar çəkib yerləşdirirlər. İnsanlar tanınmış, üzdə olan insanlardan örnək götürür. Demək olar ki, istənilən şəxs pulunu ödəməklə teleməkanda istədiyini danışa və ya hansısa reklam çarxlarını yayımlaya bilir. Heç bir jurnalist və televiziya bunu araşdırmır. Bəzi televiziyalarda insanlar uyğunsuz çıxışlar edirlər ki, qadınla kişi bərabərdir və kişi siqaret çəkirsə, qadın da çəkə bilər. Bunu genderlə də əlaqələndirirlər. Mən bunu qadınlara yaraşdırmıram. Əvvəllər qadından ətir qoxusu gələrdi, indi isə siqaret qoxusu gəlir. Bu, heç kişiyə də yaraşmır. Kişi və qadının orqanizmi həm bioloji, həm də psixoloji baxımdan fərqlidir. Bu fərq qidalanmada və zərərli vərdişlərdən istifadədə daha qabarıq şəkildə ortaya çıxır. Yəni qadınlara daha çox təsir edir. Bununla yanaşı, hamiləlik dönəmində narkotik vasitələrdən, eləcə də, siqaretdən istifadə edən qadınların dünyaya gətirdiyi uşaqlarda ağciyər problemləri və əqli gerilik yaranır. Eyni zamanda siqaretin fəsadları kişilərdə uzun müddət sonra qadınlarda isə 3-5 il sonra ortaya çıxır".

**Psixoloq qeyd edib ki, bunu aradan qaldırmağın ən gözəl yolu onun fəsadlarını, istifadə edənlərin sonrakı hallarını əks etdirən videoçarxlar hazırlamaq və sosial şəbəkələrdə yaymaqdır.**

"Eyni zamanda məktəblərdə maarifləndirmə işləri aparılmalıdır. Çünki əksəriyyət məhz məktəb yaşlarından bu zərərli vərdişə başlayır. Bununla yanaşı azyaşlılara tütün məmulatlarının satılmasının qarşısı ciddi şəkildə alınmalıdır.

**Sənan İsmayıl**

# "Qadını güclü edən arxasında dayanan bəydir"

Bəzi izləyicilər Vəfa Şərifova ilə razılaşmayıblar



**"Qadını güclü edən arxasında dayanan bəydir".**

"Şərq"in məlumatına görə, bu sözləri "Həmin Zaur" verilişinin qonağı olan müğənni Vəfa Şərifova deyib.

*Qeyd edək ki, izləyicilərin bəziləri müğənninin fikri ilə razılaşmayıb.*

**Aygün**

# "Deyirdilər oxşamırsız"

Oğlu ilə özünün uşaqlıq fotosunu kollaj etdi



**Müğənni Zamiq Hüseynov öz uşaqlıq şəkli ilə oğlu Zeynin fotosunu kollaj edib.**

"Şərq"in məlumatına görə, o bunu "İnstagram" səhifəsində paylaşıb. "Hərdən mənə deyəndə ki, oxşamırsınız, deyirəm bəzən mənə də elə gəlir. Amma indi baxıram, bənzətmə qabiliyyətimiz çox zəifdir", - deyə müğənni vurğulayıb.

**Aygün**

**Elan**

Əliyev Rizvan Rüstəm oğlunun adına verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

-MÜHASİBAT (2 AY)

-Mobil telefonların təmiri (3 ay)

-KOMPYUTER (1-3 AY)

-KOSMETOLOGİYA və VİZAj (3 AY)

-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)

-Dizayn (3-6ay)

-Masaj (3 ay)

-Biçmə - Tikiş (3 ay)

-Məktəb Psixologiyası (12 ay)

Tel: (012) 489-08-84

Mob: (070) 241-28-67

www.az-baku.com

# "Bu cəmiyyətə baxanda ürəyim ağrıyır"

**Gəncə şəhərində küçə itləri kütləvi şəkildə öldürülüb. Bu barədə sosial şəbəkələrdə görüntülər yayılıb. Bildirilib ki, itlər güllələndikdən sonra çöllük əraziyə aparılaraq, orada basdırılıb. Azərbaycanda sahibsiz heyvanlar öldürülür. Məsul şəxslər və qurumlar isə buna susur. Vətəndaşların çoxu isə bunu adi qarşılayır.**

Düşünürlər ki, itlər quduz olur, insanlara hücum edir və başqa bəhanələr gətirirlər, halbuki, hər bir canlı kimi itlər də sevgi, mərhəmət istəyir.

**Mövzu ilə bağlı "Şərq"ə danışan heyvansevər aktivist Elxan Mirzəyev bildirib ki, dəfələrlə əlaqədar qurumlara müraciət olunub:**

"Cəmiyyətimizdə hər sahədə olduğu kimi, bu istiqamətdə də qəddarlıqlar mövcuddur. Gəncədə güllələnmə olanda biz polis idarəsinə müraciət etdik. Əlimizdə sübut vardı. Gəncə İcra hakimiyyətinin əməkdaşı bu barədə yazmışdı, itlərin güllələndiyini təsdiqləyirdi. Amma bu cinayəti törədənə cəza verilmədi. Əksinə, işi ört-basdır etdilər. Polis əməkdaşlarının cinayət işinin açılması ilə bağlı rədd qərarına görə məhkəməyə müraciət etdik. Şikayətimizi təmin etməmişdilər. Gəncə Apellyasiya Məhkəməsinə də müraciət etdik. Bu da nəticə vermədi".

**Aktivist heyvanlarla bağlı gördüyü tədbirlərdə mənfəət güdmədiyini bildirib:**

"Heyvan haqları haqqında 90 səhifəlik qanun layihəsi hazırlamışam. Burada heç bir maddi marağım yoxdur. Sadəcə, təbiəti dağıdırıq deyə cəmiyyətin oyanması üçün bunu etdim. Dövlət məmurlarına da müraciət etdik, səsimizə səs verən olmadı. Təbii ki, bu, onların maraqlarına uyğun deyil".



### *Elxan Mirzəyev: "İtləri güllələyirlər, dərilərindən pul qazanırlar"*

**Aktivistə görə "güclü" və "zəif" təbəqələşmə bizi məhvə aparacaq:**

"Sahibsiz heyvanları idarə etməyin qanuni və elmi yolları var. Bu cür qəddarlıqla edilməməlidir. Niyə belə edirik, axı? Vicdani və etik olaraq heç nəyə uyğun gəlmir. "Sahibsiz heyvanlara qayğı" adlı bir mərkəz var. Orada da heyvanları öldürürlər. Bizim cəmiyyət "Kim güclüdürsə, o da haqlıdır" prinsipi ilə yaşayır. Bu, bizi uçuruma aparır. İnsanlar özlərini təbiətin sahibi kimi görür. Amma adi bir virusdan qırılırlar. Bu, həmin prinsipin cavabıdır".

E.Mirzəyev vurğulayıb ki, itlərlə bağlı dəfələrlə şayiələr yayılıb:

"Özləri itlərə zülm verir, sonra başlayırlar ki, it bunlara hücum edib. Bir dəfə rayonda gəzirdim. Gördüm ki, 4-5 yaşlı bir uşaq sakit və fağır itə daş atır. Ancaq it ona heç nə etməmişdi. Mən uşağın anasına iradlarımı bildirdim. Çünki uşağa nə təlqin olunursa, onu da edir. Artıq insan uşaqlıqdan düşünür ki, özündən zəifə zülm vermə haqqına sahibsən".

**Onun fikrincə, Türkiyədən nümunə götürə bilərik:**

"Qardaş Türkiyədə sahibsiz heyvanların qanuni statusu "ev heyvanları"dır. Yəni küçədə də yaşasalar, hüquqi cəhətdən bu cür adlanırlar. Onlar küçələrdə, insanların yanında, mağazalarda rahat gəzir. Amma biz o qədər qəddarıq ki, bu cür ola bilmirik. Fikirləşirlər ki, heyvandan güclüsənsə, nə istədin, edə bilərsən".

*E.Mirzəyev cəmiyyətimizin bu halına acıyır, onu belə görmək istəmir:*

"İtləri güllələməklə, dərilərindən pul qazanırlar. Nə qədər alçaq bir düşüncədir. Necə murdar işlərlə məşğul olurlar. Bu cəmiyyətə baxanda ürəyim ağrayır. Biz əvvəllər xeyirxah, zəifə kömək edən, mehriban idik. Ancaq indi iyrənc şeylərdə adımız ön sırada çəkilir".

**Cəmilə ƏZİM**

# Elnarə qazandığı pulları özünə xərcləyir

Ailəni isə həyat yoldaşı dolandırır



**Müğənni Elnarə Xəlilova ailə büdcəsindən söz açıb.**

"Şərq"in məlumatına görə, "Şourum"un qonağı olan müğənni dolanışığı barədə danışıb:

"Dövlət Sərhəd Xidmətinin ( DSX ) baş leytenantıyam. Dövlətdən maaş alıram. Bizim ailəmizi yoldaşım saxlayır. Öz qazandığım pulla mahnılar oxuyuram, kliplər çəkdirirəm. Tələbə də yetişdirirəm".

*Qeyd edək ki, leytenant rütbəsi daşıyan Elnarə Xəlilova DSX-nin Nümunəvi Hərbi Orkestrinin solistidir.*

**Aygün Tahir**

# Fatimə arıqlamaq üçün plastik əməliyyat etdirb



**Rəqqasə Fatimə Fətəliyeva bədən quruluşu ilə bağlı ünvanlanan sualları cavablandırıb.**

Axşam.az xəbər verir ki, sənətçi bədənşəkilləndirmə əməliyyatı etdirdiyini açıqlayıb. O bildirib ki, əvvəlcə plastik əməliyyatla artıq çəkidən xilas olub. Fatimə daha sonra çəkini saxlamaq üçün rəqs və idmanla məşğul olduğunu vurğulayıb.

*Qeyd edək ki, fatimə bundan əvvəl də bir neçə dəfə plastik əməliyyatla artıq çəkidən xilas olmağa çalışmışdı. Sənətçi eyni zamanda üzündə də bir neçə plastik proseduralar etdirib.*

# Azərbaycanın yerli kartofları xaricə satılır

## Kənd Təsərrüfatı Nazirliyi isə ağzına su alıb, danışmır

**"Altay" Sosial Araşdırmalar Mərkəzinin sədri Elçin Bayramlı feysbuk hesabında yerli kartofların bazardan çıxarılması ilə bağlı paylaşım edib. O qeyd edib ki, Kənd Təsərrüfatı Nazirliyi (KTN) yerli kartofun yoxa çıxması ilə bağlı suala cavab verməyib:**

*Mövzu kifayət qədər aktual olduğu üçün E.Bayramlı ilə əlaqə saxlayıb ətraflı münasibət öyrəndik.*



*O, "Şərq"ə açıqlamasında bildirdi ki, müxtəlif maneələr yaradılaraq yerli məhsul istehsal edənlərin qarşısı alınır:*

"Dünyada müəyyən standartlar var ki, həmişə yaxşı məhsullar əhalisinin maddi imkanı yüksək olan dövlətlərə ixrac edilir. Azərbaycan da yaxşı məhsullarını xarici ölkələrə satır. İdxalçı monopolistlər İrandan, Belarusdan, Pakistandan ucuz kartofları alıb Azərbaycanın yerli bazarında baha qiymətə təklif edirlər. Əgər özümüzü məhsulla təmin etsək, xarici malları bazarlarımızda sata bilməyəcəklər. Ona görə də onlar yerli istehsalın sıradan çıxmasında maraqlıdırlar. Əkinçilərə suvarma sistemində, bazarlara çıxışda problemlər yaradılır. Onlar da mallarını ucuz qiymətə satmaq məcburiyyətində qalırlar. Bu da onlara sərf etmir. Nəticədə, yenidən məhsul əkmirlər".

Ekspertin fikrincə, bu məsələdə əsas günahkar Kənd Təsərrüfatı Nazirliyidir:

"Bu məsələdən KTN, Meliorasiya və Su təsərrüfatı ASC, yerli icra orqanları məsuliyyət daşıyır. Kənd Təsərrüfatı Nazirliyinin vəzifəsi aqrar sektoru qorumaq, inkişaf etdirməkdir. Suvarma sistemində ciddi problemlərin olmağı torpaqların şoranlaşmasına səbəb olur. KTN vəzifəsini yerinə yetirə bilmirsə, ləğv edilsin".

**E.Bayramlı problemin həll yolunu da göstərib:**

"Azərbaycanda 100 minlərlə əkinçi zərərlə işləyir, qazananlar isə dəllallardı. Bu səbəbdən idxaldan asılı qalırıq. Zamanla da aqrar sektoru itiririk. Məhvin qarşısını almaq üçün Bakı şəhərində böyük daimi yarmarkalar təşkil edilməlidir. Digər şəhərlərdə də 2-3 daimi yarmarkanın olması yaxşı olar. Bu yarmarkalara yalnız öz məhsulunu istehsal edən fermerlər buraxılmalıdır. Məhsulunu rahatlıqla, uyğun qiymətə satan fermer növbəti il daha çox məhsul əkəcək. Müəyyən yardımların da edilməsi vacibdir. Bu gün neft satışından əldə edilən gəlirlə xaricdən məhsul ala bilirik. Neftin qiyməti aşağı düşəndən sonra xaricdən də məhsul ala bilməyəcəyik".

**Xanlar Əlibəy**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 416




## Elektrik enerjisi qəfil kəsildi

### Çarəsiz qalıb özlərini aşağı atanlar oldu

**Tükiyənin Kocaeli bölgəsi Kartəpə əyalətinə qış tətilinə gələnlər gözlənilməz halla üzləşib.**

"Şərq" "Habet Türk"ə istinadən bildirir ki, tətilçilər Kartəpədə Saman dağının zirvəsində xizək sürmək üçün qaldırıcıya miniblər. Lakin kanat yolunda gözlənilmədən nazasılıq yaranıb. Xizək sürmək istəyi ilə qaldırıcıya minənlər yüksəklikdə çarəsiz qalınca, bəziləri özünü aşağı - qarın üzərinə atıb. Bəzisi isə əyləşdiyi kürsüdən tərpənmədən nazaslığın aradan qaldırılmasını gözləyiblər. Yarım saat sonra nazaslıq aradan qaldırılıb və qaldırıcı işə düşüb. Xizəksürmə mərkəzinin rəhbərliyi nasazlığı elektrik enerjisinin qəfil kəsilməsi ilə izah edib. Odur ki, yüksəkliyə çıxmağı arzulayanlar, eniş barədə əvvəlcədən düşünsələr yaxşıdır.

**Məlahət**

## Yutub rəsmi səhifəsində məşhur "Kənd həyatı"nı paylaşdı



**Yutub rəsmi instaqram hesabında bu dəfə azərbaycanlılara məxsus "Country life vlog" ("Kənd həyatı") kanalı ilə bağlı paylaşım edib.**

Sözügedən kanaldan kadrlar paylaşan platforma fotoya "Country Life Vlog" hər kəsin xəyal etdiyi ferma həyatını yaşayır" şərhini yazıb. Şəklə qısa müddət ərzində 21 mindən çox bəyənmə gəlib.

*Qeyd edək ki, Azərbaycanın dünyaca məşhur "Kənd həyatı" kanalının abunəçilərinin sayı 3 milyondan çoxdur. Videolar Qusarın Hil kəndində yaşayan ailə tərəfindən hazırlanır. Süjetlərin məzmunu Əzizə Rəmixanovanın öz bostanında yetişdirdiyi məhsullardan yeməklərin hazırlanmasından ibarətdir.*

## İlhan Mansız azərbaycanlı xanımla eşq yaşayır



**Futbol üzrə Türkiyə millisinin sabiq üzvü, daha öncə "Beşiktaş" klubunda oynayan futbolçu İlhan Mansızın azərbaycanlı xanımla eşq yaşadığı üzə çıxıb.**

**Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, keçmiş futbolçu Leyla adlı xanımla İnstaqram hesabında çimərlikdə çəkilən birgə fotosunu paylaşıb. Leyla isə restoranda lentə alınan səmimi görüntülərini səhifəsində izləyiciləri ilə bölüşüb.**

***Qeyd edək ki, İ.Mansız 2017-ci ildə "Survivor" yarışmasında da iştirak edib.***

## Zelenski 60 yaşdan yuxarı peyvənd olunanlara smartfon söz verdi



**Ukraynada 60 yaşdan yuxarı COVID-19-a qarşı peyvənd olunmuş şəxslərə smartfonlar hədiyyə olunacaq.**

**Oxu.az xəbər verir ki, bu barədə Ukrayna Prezidenti Vladimir Zelenski danışıb.**

**Bundan əlavə, sözügedən telefonların sahiblərinə güzəştli internet xidməti də təklif olunacaq.**

**"Rəqəmsal dövlətin üstünlükləri yaşından asılı olmayaraq, hər kəs üçün əlçatan olmalıdır", - deyə Ukrayna lideri bildirib.**

## 2000 illik "qeyd dəftəri" tapıldı



**Arxeoloqlar Misirdə təxminən 2000 il əvvələ aid "qeyd dəftəri" tapıblar.**

**Milli.Az xəbər verir ki, antik Athribis şəhərində aşkar edilən "qeyd dəftəri" özündə 18 mindən çox saxsı parçasını ehtiva edir.**

***Qeyd edək ki, 1900-cü illərin əvvəllərində də bu tipli yazılar alimlər tərəfindən kəşf olunub və onlar əsasən tibblə bağlı olub. (publika.az)***



# Hər il 65 min uşaq ölür

### Dünyada uşaqların yarısı siqaret tüstüsünə məruz qalır

**Siqaretin təkcə onu çəkənlərə deyil, ətrafdakılara - onları passiv siqaret çəkənlər adlandırırlar - zərər vurduğu, siqaret tüstüsünün udulması səbəbindən tənəffüs yolları xərçənginə yaxalandıqları çoxdan təsdiqini tapıb.**

Ən dəhşətlisi isə budur ki, zərərçəkənlər arasında azyaşlılar üstünlük təşkil edir. "Şərq" "Haber Türk"ə istinadən xəbər verir ki, Dünya Səhiyyə Təşkilatı hər il 65 min uşağın 5 yaşına çatmamış məhz siqaret tüstüsünün qurbanı olduğunu bildirir.

Dünya Səhiyyə Təşkilatı 9 fevral tarixini Siqaretdən İmtina Günü elan edib. Siqaret çəkmək erkən ölüm səbəbləri arasında ilk sıradadır. Siqaretin xərçəngin müxtəlif növləri, ürək-damar xəstəliklərinə səbəb olduğu məlumdur. Siqaret çəkənlər bununla ətraflarında olan insanların da həyatını təhlükəyə atır. Dünyada hər il 8 milyondan çox insan tütün məhsullarının istifadəsi səbəbindən, 1,2 milyon insan isə tütün dumanına məruzqalma səbəbindən həyatını itirir. ÜST-ün məlumatına görə, dünyada uşaqların yarısı siqaret tüstüsünə məruz qalır. Təhlükənin qarşısının alınmasında təkcə qapalı ictimai yerlərdə deyil, açıq ictimai məkanlarda və avtomobillərdə də siqaretdən istifadəyə qadağa qoyulması tövsiyə edilir. Son illərdə istehsal edilən elektron siqaret, "tüstüsüz" tütün məhsulları da eynilə siqaret kimi zərərlidir. Tütün məmulatlarından istifadə iqtisadiyyata da ildə 1,4 trilyon zərər vurur. Koronavirus pandemiyası siqaretdən imtina üçün əsaslı səbəb olsa da, təəssüf ki, gözəntilər özünü doğrultmadı. Siqaret aludəçiləri



hətta pandemiyanı da görməzdən gəlirlər və həm özlərini, həm də ətrafdakıları, ailə üzvlərini ölümün qucağına atırlar.

**Məlahət**




## Tıxaclara görə hamının ictimai fəallıq əmsalı aşağı düşüb

### Kamran Əsədov deyir ki, vəziyyətdən çıxış yolu alternativ nəqliyyat vasitələrindən istifadə etməkdir

**Tanınmış təhsil eksperti Kamran Əsədovun feysbuk hesabında motosikletlə bağlı paylaşımı maraqla qarşılanıb. K.Əsədov fotonu bölüşərək yazıb: "Şəhərin tıxacından xilas olmağın yeganə yolu. Paylaşım ki, müvafiq şəxslər istifadə edəndə öz materiallarımdan yararlansınlar".**

Sosial şəbəkə izləyicilərindən Elvina Cəfərli həmin fotoya reaksiya verərək "velosiped yolları olsa, əla olar" - deyə qeyd edib.

Başqa bir şəxs - Leyla Həsənova "super, inanın, qınayan olmasa, mən də skuterdən istifadə edərdim" - rəyini yazıb.

Samirə Rəcəbli isə "motosikletlə gəzən biri kimi deyim ki, həqiqətən də adrenalinli vasitədir. Həm tıcaxda üreyin sıxılmır, həm də vaxta qənaət etmiş olursan" - deyə yazaraq ekspertin fikrini dəstəkləyib.

**Məsələ ilə bağlı K.Əsədovun özü ilə əlaqə saxladıq. O, "Şərq"ə açıqlamasında bildirib ki, şəxsi avtomobildən istifadə edənlər Bakıda çox ciddi şəkildə tıxacdan əziyyət çəkirlər:**

"Vaxtında bir məntəqədən digərinə keçmək mümkün deyil. Təbii ki, sıxlığın bir sıra səbəbləri var. Onlardan biri təhsil müəssisələrinin paytaxtda hədsiz dərəcədə çox olmasıdır. Ölkədə 51 ali təhsil müəssisəsində 187 min tələbə təhsil alırsa, onun 100 minə qədəri Bakının payına düşür. Təkcə paytaxt şəhərin orta məktəblərində çalışan müəllimlərin sayı 28 min, təhsil alan şagirdlərin sayı isə 600 minə yaxındır. Bu, kifayət qədər ciddi rəqəmdir. Bakı hazırda nəzərdə tutulandan artıq insan qəbul edir. Əvvəllər tıxaclar səhər saat 8-9 arası, "çaspik" vaxtlarda olurdusa, artıq günün bütün zamanlarında biz bu problemlə qarşılaşırıq. Digər işlərimizi vaxtında görə bilmirik. Ona görə də diqqət çəkmək istədiyim məsələ şəxsi avtomobillərin həcmini kiçiltmək, yaxud da alternativ nəqliyyat vasitələrindən istifadə etməkdir".

**Ekspert diqqətə çatdırıb ki, ictimai nəqliyyat problemin həlli üçün yetərli deyil:**

"Metrostansiyaların sayını artırmalıyıq. Bu gün nəqliyyat sıxlığı həyatımıza, fəaliyyətimizə, faydalılıq əmsalımızın aşağı düşməsinə gətirib çıxarır. İnanıram ki, mütəxəssislər qısa müddət ərzində də məsələyə öz töhfələrini verəcəklər. Çünki bu, iqtisadi inkişafa da öz təsirini göstərir. Ən azından tələbə sayı çox olan universitetləri Bakıdan kənara köçürmək olar. Hətta bəzi orta məktəblərin də şəhərdən kənara aparılması mümkündür. Bununla da tıxacların sayı azalar".

**Sücayət Mehti**

## Konki sürən it öz istedadı ilə insanları valeh etdi



**Nyu-Yorkda konki sürən it öz istedadı ilə insanları heyran edib.**

Oxu.az xəbər verir ki, Las-Veqaslı Şerl Delsangro 8 yaşlı labrador Bennini sığınacaqdan götürdüyünü deyir. Qadının sözlərinə görə, ev heyvanını uyutmaq istəyiblər, ona görə də o, bir gündə bütün lazımi sənədləri düzəldib və iti evinə aparıb.

Keçmiş peşəkar fiqurlu konkisürən qadın, Benniyə xüsusi olaraq it üçün hazırlanmış konkidə konki sürməyi öyrətməklə əylənmək qərarına gəlir. Şerilin sözlərinə görə, labrador buzda dərhal özünü inamlı hiss edib.

"Bu, həqiqətən onun xoşuna gəlir", - deyə Delsangro bildirib.

Bundan əlavə, Benni Nyu-Yorkun Mərkəzi Parkına toplaşan hər kəs üçün tamaşa nümayiş edib, bununla da xeyriyyə üçün pul toplaya bilib.

Sahibinin dediyinə görə, bütün vəsaitlər görmə qabiliyyətini itirmiş heyvanlara kömək edən "Anima Vision" fonduna yönəldiləcək.

## Forbes" jurnalı 50 ən uğurlu ərəb qadın sahibkarın adını açıqlayıb



**"Forbes" jurnalı 50 ən uğurlu ərəb qadın sahibkarın adını açıqlayıb.**

Azərtac xəbər verir ki, siyahıya iqtisadiyyatın 17 sektorunu əhatə edən 19 Yaxın Şərq və Şimali Afrika ölkəsindən olan zərif cinsin nümayəndələri daxil edilib.

Ən uğurlu ərəb qadın iş adamlarının siyahısına Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) fəaliyyət göstərən "İsa Salih Əl Qurq" şirkətlər qrupunun icraçı direktoru Raca Əl Qurq başçılıq edir. İlk beşliyə, həmçinin "Dubay Landmark" qrupunun rəhbəri Renuka Caqtiani, BƏƏ telekommunikasiya şirkətinin direktoru Hana Əl Rustamani, Səudiyyə Ərəbistanı Fond Birjasının sədri Sara Əl Suaymi və Dubay daşınmaz əmlak bazarının direktoru Məryəm Əl Suvaydi daxildirlər.

*"Forbes"in siyahısında yer almış ən çox qadın sahibkar BƏƏ, Misir, Səudiyyə Ərəbistanı, Mərakeş və Küveyt nümayəndələridir.*